Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 FEVRAL 2020-ci il

№ 24 (4155)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# SEÇKİLƏRLƏ QARABAĞ SÜLH PROSESİNƏ İKİ TƏSİR NÜMUNƏSİ - ERMƏNİSTAN ÜÇÜN POZUCU, AZƏRBAYCAN ÜÇÜN SÜRƏTLƏNDİRİCİ TAKTİKA...

səh. 9

Dünyanın üçdə biri Azərbaycanın seçki sistemini birbaşa izlədi - ölkənin mövqeyini möhkəmləndirən 9 fevral prosesləri...
səh. 8

Azərbaycan XİN Dağlıq Qarabağın seçilmiş nümayəndələrinin Milli Məclisdə təmsil olunduğunu dünyaya rəsmi bəyan etdi
səh. 2

Xarici mediada 9 fevral seçkisi ilə bağlı yazılar say üstünlüyü ilə diqqət çəkdi
səh. 11

6-cı parlamentin tərkibindəki yeniliklər - ciddi araşdırma tələb edilən dairələr...
səh. 5

Deputatlığa 1300-dən çox namizədin cəmi 230-u partiya üzvü kimi - ölkədə partiyalaşmanın yeni mərhələsinə ictimai tələbat yetişib
səh. 10

9 fevral səsverməsinə qanunsuz polis müdaxiləsinə dair bircə fakt da qeydə alınmadı
səh. 6

Ermənistan vətəndaş cəmiyyəti institutları antikonstitusion islahata qarşı - Avropa strukturları hələ susur...
səh. 13

Azərbaycan turizmin inkişaf sürətinə görə dünyanın 20-ləri sırasına düşdü
səh. 14



səh. 3-4

## Dünya müşahidəçilərindən seçkiyə birmənalı, AŞPA və ATƏT PA-dan isə əsasən dəstək...



Ölkədə 48 faiz seçici fəallığı - Azərbaycan bununla dünyaya nəyi göstərdi...
səh. 5

Ermənistan 5 aprel referendumu ilə sülh danışıqlarını növbəti dəfə uzatmaq mexanizmini işə saldı
səh. 13



Dünya mediasının Qarabağ yazılarının Ermənistanda rezonansı - «informasiya siyasətində Azərbaycandan geri qalırıq»
səh. 12

səh. 7
Elmar Məmmədyarov beynəlxalq konfransda Ermənistanı belə vurdu - təcavüzkarın ucbatından beynəlxalq nüvə təhlükəsizliyinə daha çox töhfə verə bilmirik



səh. 6
Seçki günü ictimai qaydanın heç bir kobud pozuntu faktı olmadı - DİN-in bəyanatı nələrə söykənir...



səh. 10
AŞPA 9 fevral seçkisi barədə yekun bəyanatı niyə aprelə saxladı...



səh. 11
Sosial şəbəkələrdə ən çox səs-küy salanlar - seçkidə ən az səs toplayanlar...



səh. 14
İqtisadiyyatımıza kredit qoyuluşlarında bank olmayan kredit təşkilatlarının rolu "ölü" vəziyyətdədir



# Prezident İlham Əliyev "Azərenerji" ASC-nin "Dübəndi" yarımstansiyasının açılışında iştirak etdi



**Fevralın 10-da Prezident İlham Əliyev Bakının Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılışında iştirak edib.**

Yarımstansiyanın kollektivini salamlayan Prezident İlham ƏLİYEV deyib:

-Yeni yarımstansiyanın açılışı münasibətilə sizi təbrik edirəm. "Dübəndi" yarımstansiyası indi bütün yüksək standartlara cavab verir və böyük ərazini elektrik enerjisi ilə qidalandıracaq. Əvvəlki yarımstansiyanın vəziyyəti çox acınacaqlı idi, demək olar ki, sıradan çıxmışdı. Ona görə yeni yarımstansiyanın tikintisi zəruri idi və bunu da "Azərenerji" yüksək səviyyədə təşkil edib. Beləliklə, Azərbaycan əhalisinin enerji ilə dayanıqlı təminatı işində növbəti önəmli addım atılmışdır.

Onu da bildirməliyəm ki, son illər ərzində bu sahəyə çox böyük diqqət göstərilir. Bunun sayəsində Azərbaycanda enerji təchizatı ilə bağlı bütün əsas problemlər demək olar ki, həllini tapmışdır. Son illərdə bu sahəyə göstərilən diqqət elə vəziyyət yaradıb ki, Azərbaycan artıq enerji təminatçısına çevrilib. Əvvəlki dövrlərdə biz idxaldan asılı idik. İndi isə öz tələbatımızı tam təmin edib hətta ixrac da edirik.

## Gürcüstanın Baş naziri YAP-ın seçki qələbəsinə görə Prezident İlham Əliyevi təbrik etdi

**Gürcüstanın Baş naziri Giorgi Qaxaria fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.**

G.Qaxaria Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə dövlət başçısına təbriklərini çatdırıb. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafından məmnunluqlarını ifadə edərək, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildiriblər.

## Mətbuat Şurası medianın 9 fevral parlament seçkiləri ilə bağlı fəaliyyətinin monitorinqini yekunlaşdırdı...

**Azərbaycan Mətbuat Şurası medianın 9 fevral 2020-ci il tarixdə Milli Məclisə keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı fəaliyyətinin monitorinqini aparıb.**

Monitorinqdə məqsəd ölkənin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin seçki dövrünü işıqlandırmalarındakı nəzərəçarpan peşəkarlıq meyllərini qruplaşdırmaqdan, deputatlığa namizədlərin KİV-lərdə öz təbliğat kampaniyalarını aparmaları imkanlarını müəyyənləşdirməkdən ibarətdir. Monitorinqdə KİV-lərin "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na nə dərəcədə riayət etmələrinə diqqət yetirilib. Bu xüsusda təbliğat, əks-təbliğat materiallarına, "qara piar" halları nəzərdən keçirilib.

Monitorinq 3 mərhələdə keçirilib:

1. Milli Məclisə növbədənkənar seçkilərin rəsmən elan olunduğu tarixdən təbliğat-təşviqat kampaniyasının başlandığı tarixədək olan dövr - 5 dekabr 2019-16 yanvar 2020;
2. Təbliğat-təşviqat kampaniyası dövrü 17 yanvar - 7 fevral 2020;
3. 9 fevral parlament seçkisinin işıqlandırılması. Medianın prosesdə iştirakçılığı, jurnalist fəaliyyətinə yaradılmış şəraitin öyrənilməsi - 9 fevral 2020.

20 qəzetin, 30 elektron informasiya resursunun cəlb olunduğu monitorinqin ilkin nəticələri onu deməyə əsas verir ki, namizədlərin təbliğat-təşviqat işlərini aparmaları üçünmeydan kifayət qədər geniş olub. Hər bir namizəd bu və ya digər kütləvi informasiya vasitəsində sərbəst şəkildə öz platformasını açıqlamaq imkanı qazanıb. Mövcud şərait medianın seçki prosesinə həssas yanaşmasını təsdiqləyən mühüm göstəricidir. Seçki günü medianın prosesdəki aktivliyi özünün ən yüksək səviyyəsinə çatıb. Həmin gün yayımlanmış seçki materialları monitorinqi aparılmış KİV-lərin ümumi materiallarının 85 faizini təşkil edib. Bu isə onu söyləməyə əsas verir ki, jurnalistlər ölkə və xalq üçün böyük əhəmiyyət daşıyan prosesə həssaslıqla yanaşıblar. Monitorinqi aparılmış KİV-lərdə sükut gününün tələblərinə də ümumən riayət olunub.

Azərbaycan Mətbuat Şurası 9 fevral 2020-ci il tarixdə keçirilmiş Milli Məclisə növbədənkənar parlament seçkiləri günü fəaliyyətini iki istiqamətdə qurub.

Bunlardan birincisi Şurada "qaynar xətt" rejimi təşkili olub. Şuranın (012) 441 35 96 şəhər, (050) 206 96 02 mobil telefon nömrələri fevralın 9-da saat 08.00-dan 19.00-dək bu rejimdə fəaliyyət göstərib. Məqsəd növbədənkənar parlament seçkilərini işıqlandıran jurnalistlərin üzərinə düşən missiyanı səmərəli yerinə yetirmələri, bu istiqamətdəki mümkün problemlərin və anlaşılmazlıqların dərhal aradan qaldırılmasını təmin etmək olub. Şura gün ərzində "qaynar xətt"in fəaliyyəti ilə bağlı 3 informasiya yayıb.

Mətbuat Şurasının "qaynar xətt"inə 4 müraciət daxil olub. Müraciətlərdən 3-ü 57 saylı Kürdəmir seçki dairəsinin 3,5 və 20 saylı məntəqələri ilə bağlıdır. 1 müraciət isə 47 saylı Mingəçevir seçki dairəsinin 15 saylı seçki məntəqəsindəndir. Müraciət edənlər "7news" saytının əməkdaşı Murad Musayev, "Ayna.az" saytının əməkdaşı Rumiyyə Miraslan, "Femida.az" saytının əməkdaşı Mircəlal Məcidov və "Media-press.az" saytının əməkdaşı Könül Aypara olub. Hər dörd məsələ ilə bağlı Mərkəzi Seçki Komissiyası ilə operativ əlaqə saxlanılıb, qurumun araşdırmaları sonrası problemlər aradan qaldırılıb. MŞ sədri Əflatun Amaşov 22 saylı Nəsimi ikinci, MŞ sədrinin müavinləri - Umud Mirzəyev və Müşfiq Ələsgərli müvafiq olaraq 8 saylı Binəqədi birinci və 30 saylı Suraxanı birinci seçki dairələrindəki, Şuranın İdarə Heyətinin üzvlərindən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə 17 saylı Yasamal üçüncü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid 29 saylı Səbail, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev 11 saylı Qaradağ, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı 12 saylı Qaradağ-Binəqədi-Yasamal, Azərbaycanlıların və Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin rəhbəri İlham İsmayıl 60 saylı Salyan-Neftçala, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli 41 saylı Sumqayıt birinci seçki dairələrinə daxil olan məntəqələrdə jurnalistlərə yaradılmış şəratin monitorinqini aparıblar.

# Azərbaycan XİN Dağlıq Qarabağın seçilmiş nümayəndələrinin Milli Məclisdə təmsil olunduğunu dünyaya rəsmi bəyan etdi

**9 fevral 2020-ci il tarixində Milli Məclisə keçirilmiş seçkilərlə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) bəyanat yayıb.**

Nazirlikdən baki-xeber.com-a verilən məlumatda deyilir:

2020-ci il fevralın 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirilib. Seçkilər Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi və Azərbaycanın beynəlxalq öhdəliklərinə tam uyğun olaraq baş tutub.

Ölkə boyu 5573 seçki məntəqəsi yaradılıb və Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına əsasən seçicilərin 47.81 faizi səsvermədə iştirak edərək öz səsvermə hüququndan istifadə edib.

Ermənistan təcavüzü nəticəsində Azərbaycanda mövcud 125 seçki dairəsindən 7-nin ərazisinin tamamilə, 3-nün isə qismən işğal edilməsi səbəbindən, həmin ərazilərdən didərgin salınmış daxili məcburi köçkünlərin konstitusion səsvermə hüquqlarından istifadə etmələri üçün ölkə boyu 523 seçki məntəqəsi yaradılıb. Bu, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının 29 yanvar 2020-ci il tarixli aralıq hesabatında əks olunub. Azərbaycanın işğal olunmuş ərazilərindən olan və doğma yurdlarında səsvermədən məhrum olan məcburi köçkünlərimiz öz səsvermə hüquqlarını onlar üçün təşkil edilmiş bu seçki məntəqələrində həyata keçiriblər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icması Xankəndi və Şuşa seçki dairələri üzrə rəqabətli seçkilərdə iştirak ediblər və beləliklə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin seçilmiş nümayəndələrini təşkil edirlər. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsindəki erməni mənşəli Azərbaycan vətəndaşları Mərkəzi Seçki Komissiyası, eləcə də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icması tərəfindən parlament seçkilərində səsvermədə iştiraka dəvət olunub.



Seçkilərdə indiyədək parlament seçkilərində qeydə alınmış ən yüksək sayda - 1314 namizəd mübarizə aparıb və bu da namizədlərin qeydiyyatı prosesinin əhatəli və ədalətli olduğunun, eləcə də rəqabətli seçki mühitinin göstəricisidir. Seçkilər habelə, ötən seçkilərlə müqayisədə qeydə alınmış qadın namizədlərin sayının əhəmiyyətli dərəcədə artması, 19 siyasi partiya namizədlərinin təmsil olunması ilə geniş plüralizmin təmin edilməsi kimi məqamlarla əlamətdar olub.

**Seçki prosesi Azərbaycan tərəfinin dəvəti ilə ölkəyə gəlmiş 883 beynəlxalq və 78 000-ə yaxın yerli müşahidəçi tərəfindən izlənilib. Eyni zamanda, seçkilərin müşahidəsinə 132 xarici KİV-dən 199 nümayəndə qatılıb. Həm beynəlxalq, həm də yerli müşahidəçilərin mütləq əksəriyyəti seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçdiyini təsbit ediblər. Seçkilərlə bağlı hər hansı nöqsanlar qeydə alınıbsa, onlar aidiyyəti üzrə ciddi araşdırılacaqdır.**

09 fevral 2020-ci il tarixli parlament seçkiləri Azərbaycan Respublikasının demokratik inkişafı yolunda növbəti önəmli mərhələni təşkil edir.

# Dünya müşahidəçilərindən seçkiyə birmənalı, AŞPA və ATƏT PA-dan isə əsasən dəstək...

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) müşahidə missiyası ölkədə keçirilən parlament seçkilərində müşahidələrinin nəticələrini açıqlayıb. "Trend"in məlumatına görə, QDİƏT PM-in müşahidə missiyasının üzvü, türkiyəli deputat Cemal Öztürk bildirib ki, Azərbaycanda demokratik, ədalətli seçki keçirildi:**

"Qardaş, dost Azərbaycanda 2020-ci il parlament seçkilərində müşahidəçi kimi iştirak etdim. Artıq 3 gündür ki, prosesləri izləyirik. Müşahidələr apardığım zaman hər hansı neqativ hadisəyə rast gəlmədim. Azərbaycan xalqını təbrik edirəm, bu seçkilər Azərbaycanın daha da güclənməsi, inkişafı üçün yeni başlanğıc olar. Azərbaycan xalqı ən yaxşılara layiqdir. Biz hər zaman Azərbaycanın yanında olduq, bundan sonra da olacağıq. Bir millət, iki dövlət olaraq dost Azərbaycanın yanında olduğumuzu hər zaman ifadə etmişik, bu gün də ifadə edirik.

Bu seçkilərin təkcə Azərbaycanda yox bütün Türk dünyası, bölgədəki sülhə təsir edəcəyinə inanıram. Azərbaycan xalqını təbrik edirəm və təşəkkür edirəm".

Baş katib Asəf Hacıyev isə bildirib ki, təşkilata 12 dövlət və 76 millət vəkili daxildir: "Nümayəndə heyətinə 5 ölkənin nümayəndəsi daxildir. Dünən səhər saat 10:00-dan Bakıda 10-dan çox seçki məntəqəsində olduq, heç bir pozuntu görmədik. Hətta orada olan partiyaların nümayəndələrindən də soruşduq, daha sonra Maştağa və Bilgəhdə də 10-a yaxın məntəqədə olduq. Buralarda aktivlik daha çox idi".

Baş katib deyib ki, hər bir seçki demokratiyanın ölçüsüdür: "Dünənki seçkilər nəinki Avropa, hətta dünya standartlarına uyğun keçirildi. Soyuq havaya baxmayaraq, 45 faizə yaxın seçici iştirak etdi. Yeni Azərbaycan Partiyası bir daha göstərdi ki, formalaşmış, Azərbaycanı gələcəyə aparan partiyadır. İlkin nəticələrə görə partiya 69 yer qazanıb".

QDİƏT PM-in müşahidə missiyasının üzvü, rusiyalı deputat Maksim Şablikin deyib ki, həmkarları ilə birgə seçkidə müşahidə aparıb: "Azərbaycanda seçkilər çox demokratik şəkildə keçirildi. Ən əsası məndə seçkilərin təhlükəsiz, sakit şəraitdə keçməsi ilə bağlı çox gözəl təəssürat yarandı. Vətəndaşların çox sakit və azad şəkildə seçkilərdə iştirak etdiyini gördüm. Seçkilərin demokratik keçirilməsini çox yüksək qiymətləndirirəm. Azərbaycanda namizədlərin sayına baxanda başa düşmək olur ki, Milli Məclis Azərbaycanın həyatında nə qədər böyük rol oynayır. Düşünürəm ki, bu seçkilər ilk növbədə Azərbaycan xalqının qələbəsidir. Vətəndaşlar öz deputatlarını seçdilər, düşünürəm ki, ən böyük hakimiyyət xalqın hakimiyyətidir. Demokratik və şəffaf seçkilər üçün təşəkkür edirəm".

### Bir beynəlxalq müşahidəçi Avropa ölkələrini Azərbaycanın seçki təcrübəsindən yararlanmağa çağırdı

Bosniya və Herseqovinadan olan müşahidə missiyası Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində apardıqları müşahidələrin nəticələrini açıqlayıb.

"Trend"in məlumatına görə, Bosniya və Herseqovina Parlament Nümayəndələr Palatasının üzvü Predraq Kojul Azərbaycanda keçirilən parlament seçkilərinin tam demokratik olduğunu bildirib: "Bütün seçki məntəqələrində hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Namizədlər və yerli müşahidəçilərlə danışdıq. Seçki məntəqələrinin sədrlərinin əksəriyyəti qadın idi. Tam əminliklə deyə bilərəm ki, başqa Avropa ölkələri Azərbaycanın seçki təcrübəsindən yararlanmalıdır. Namizədlərin çoxu gənclər idi".

Predraq Kojul prosesdə bəzi çatışmazlıqların da olduğunu deyib: "Namizədlər arasında qadınların sayı çox deyildi. Düşünürəm ki, gələcəkdə bu məsələ də həllini tapacaq və xanımların seçkiyə marağı artacaq. Bir neçə məntəqədə müşahidəçilər texniki pozuntuların olması barədə məlumat verdilər. Bu isə seçki nəticələrinə təsir etmir. Bosniya və Azərbaycan arasında əməkdaşlıq var və bundan sonra da davam edəcək".

### İtaliyalı müşahidəçinin də seçki rəyi müsbət oldu

İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun nümayəndələri Azərbaycanda növbədənkənar seçki prosesindəki müşahidələrin nəticələrini mətbuat nümayəndələrinə açıqlayıb. İtaliya Parlamenti Deputatlar Palatası, Sosial Məsələlər üzrə Komitənin sədr müavini, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Rosanna Boldi müşahidəçi qismində Azərbaycandakı seçki prosesini izləməyin çox maraqlı olduğunu bildirib:

"Ötən gün mən və həmkarım Bakıda və Bakıdan kənardakı seçki məntəqələrində olduq. Sumqayıtda 2 seçki məntəqəsində prosesi izlədik. Əsasən, diqqətimizi seçki qaydalarına riayət edilməsinə yönəltmişdik. Xüsusilə, səsverməyə gələnlərin sənədlərinin yoxlanması məsələsində ciddi nəzarət hiss etdik. Bir çox məntəqələrdə ultrabənövşəyi cihazlar və şəffaf mürəkkəblər vardı. Müşahidə kameraları işləyirdi. Müşahidəçilər arasında həm siyasi partiyalara aid, həm də müstəqil şəxslər vardı. Onların əksəri qadın və gənclərdən ibarət idi. Müşahidəçilərdən biri şikayətlənirdi ki, məntəqə sədri ona bülletenlərin şəklinin çəkilməsinə icazə verməyib.




Seçki Məcəlləsində bu qaydalarla tanış oldum. İtaliyada da bu qayda var. Seçki məntəqəsinə fotokamera ilə daxil olmaq qadağandır. Bundan başqa, əyləncəli dəqiqələr də yaşadıq. Seçki məntəqələrindən birində bizi səsverənlərlə səhv salmışdılar. Onlar deyirdilər ki, siz daha əvvəl başqa seçki məntəqəsində olmusunuz. Biz izah etdik ki, xarici müşahidəçiyik. Bunu xüsusilə qeyd etdim ki, seçki prosesinin necə şəffaf keçdiyindən əmin olasınız".

İtaliya Parlamentinin Səhiyyə Komitəsinin üzvü, Avropa Şurasında İtaliya nümayəndə heyətinin üzvü Mariya Rizotti də dünənki seçki prosesinin tam şəffaflıqla keçdiyini bildirib: "Səsvermə qaydalarına ciddi surətdə riayət olunurdu. Azərbaycan xalqına dəyər verən senatorlardan biriyəm. Avropadakı çıxışlarımda da vurğulayıram ki, Azərbaycan qadınlara böyük dəyər verir. 1918-ci ildə məhz bu ölkədə qadınlara ilk dəfə səsvermə hüququ tanınıb. Azərbaycan bununla bəzi Avropa və Amerika ölkələrini qabaqlayıb".

### İƏT müşahidəçisi heç bir qanun pozuntusu müşahidə etmədiyini bildirdi

Azərbaycanda fevralın 9-da keçirilən parlament seçkiləri demokratik keçib. Bunu Milli Məclisə fevralın 9-da keçirilən növbədənkənar seçkilərin nəticələri ilə əlaqədar keçirilən tədbirdə olan beynəlxalq müşahidəçi, İslam Əməkdaşlıq Təşkilatının müşahidə missiyasının üzvü Əli Əsgər Mohammadi deyib.

Azərbaycan tarixində demokratiyanın mühüm amil olduğunu deyən müşahidəçi Azərbaycan xalqını seçkinin nəticəsinə görə təbrik edib.

O əlavə edib ki, İslam Əməkdaşlıq Təşkilatının iki nümayəndəsi seçkilərdə müşahidəçi qismində qatılıb. Müşahidəçilər Bakıda 8 məntəqədə müşahidə aparıblar.

Məntəqələrdə heç bir qanun pozuntusu müşahidə etmədiklərini deyən Əli Əsgər Mohammadinin sözlərinə görə, havanın soyuq olmasına baxmayaraq, parlament seçkilərində seçici fəallığı yüksək olub.

O, seçkidə müşahidəçilərin prosesi diqqətlə izləməsindən də məmnun qaldığını söyləyib.

Əli Əsgər Mohammadi bunu da əlavə edib ki, Azərbaycan təmsil etdiyi təşkilatın fəal üzvüdür: "Azərbaycan bizim üçün dost, qardaş ölkədir. Bizim səsimiz sizinlədir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın haqq işini hər zaman dəstəkləyir".

### Türk Şurası da 9 fevral seçkisinə rəy açıqladı

Fevralın 10-da Türk Şurasının Müşahidə Missiyası Azərbaycanda keçirilən Parlament seçkilərindəki müşahidələrinin nəticələrini açıqlayıb. Tədbirdə çıxış edən təşkilatın Baş katibin müavini Ömər Kocaman parlament seçkilərinin heç bir qanun pozuntusu olmadan keçirildiyini bildirib: "Müşahidələr Bakı və Mingəçevir şəhərlərində aparıldı. Fevralın 4-də Bakıya gəldik və seçki prosesinə hazırlıqla bağlı araşdırmalar apardıq.

Seçki tam qanunauyğun şəkildə aparılıb. Namizədlər üçün əlverişli şərait yaradılmışdı. Bununla yanaşı, siyasi partiyalar da çoxluq təşkil edirdi. Bu da seçkilərin ədalətli və şəffaf keçirildiyini təsdiqləyir. Məntəqələrdə seçicilər heç bir təsirə məruz qalmadan azad şəkildə seçimlərini edirdilər. Müşahidə apardığımız seçki məntəqələrində texniki tərəfdən və insan amili nöqteyi-nəzərindən səsvermə prosesində hər hansı pozuntu görmədik. İnsanların məntəqələrə yüksək əhval-ruhiyyə ilə səs verməyə gəlmələrini görmək çox maraqlı idi. Bundan başqa, qadın namizədlərin də sayı çoxluq təşkil edirdi".

O, nümayəndə heyətinə Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan olan əməkdaşların daxil olduğunu bildirib və əlavə edib ki, seçki prosesini 2 missiyaya bölünərək müşahidə ediblər: "Seçki məntəqələrində bizə hər cür məlumat verildi, müşahidəmiz üçün lazımi şərait yaradıldı. Namizədlərin sayının çox olması seçkiyə inamın artdığından xəbər verir".

Ömər Kocaman seçkinin uğurla başa çatdığına görə, Azərbaycan xalqını təbrik edib: "Sevindirici haldır ki, bu seçkilərdə gənclər daha fəal idilər. Namizədlərin hər 100 nəfərindən 50-si 20-40 yaş həddində olanlar di. Bu da Milli Məclisin yenilənməsinə, gəncləşməsinə işarədir.

Siyasi partiyaların normal sayda namizədlərlə prosesdə iştirakı qürurvericidir.

Mərkəzi Seçki Komissiyası ölkədə olan 341 min məcburi köçkün üçün 573 seçki məntəqəsi təşkil etdi və onların səs verməsi üçün hər cür şərait yaradılmışdı. 24 məntəqədə müşahidə apardıq. Müşahidəçilərimiz sona qədər prosesi müşahidə edib. Heç bir pozuntu aşkarlamadı. Azərbaycanda parlament seçkilərinin tam demokratik keçirildiyini əminliklə deyirik. Azərbaycan xalqı üçün xeyirli və uğurlu olsun.

Azərbaycanın son 20 ildəki inkişafı artıq göz qabağındadır. Bütün dünya bu inkişafı və nəticəni görür".

### Meksika nümayəndə heyəti seçkilərə necə qiymət verdi?

Meksika nümayəndə heyəti də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini izləyib. Müşahidənin nəticələrini açıqlayan Meksika Parlamentinin deputatı Aqustin Qarsia Rubio bildirib ki, Azərbaycanda növbədənkənar parlament seçkiləri tam demokratik və şəffaf keçirilib:

"Deputat olaraq demokratik seçkilərlə bağlı əsas konfedensiyaları açıqlamaq istəyirəm. Seçkilər bütövlük, dürüstlük və məsuliyyət konfedensiyaları əsasında formalaşmışdı. Bu seçkidə Azərbaycan xalqına legitimlik verildi. Xarici ölkələrin nümayəndələrinə isə ölkələrarası münasibətlərə fayda vermək imkanı tanındı. Avtoritarlığın qarşısını almaq üçün vətəndaşların səsvermədə iştirakı mütləq idi. Azərbaycan vətəndaşlarının öz övladlarını prosesə cəlb etmək və seçkinin mahiyyətini onlara başa salmaq gələcəkdə bu prosesin daha demokratik və təkmilləşdirilmiş formada keçirilməsinə şərait yaradacaq.

Gün ərzində Bakıda 10 məntəqədə seçki prosesinin müşahidəsini aparmışam. İllər öncə qoyulan təməllərin bu gün də prioritet olduğunun şahidi oldum. Azərbaycanda sənaye və turizm, energetika və iqtisadi sahədə nailiyyətləri müsbət dəyərləndirirəm. Hər bir Azərbaycan vətəndaşı Meksikada hörmətlə qarşılanacaq".

### MDB müşahidə missiyası seçkiləri rəqabətli adlandırdı

Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası Azərbaycanda keçirilən parlament seçkilərindəki müşahidələrinin nəticələrini açıqlayıb. Tədbirdə çıxış edən missiya rəhbəri Viktor Quminskiy deyib ki, müşahidə zamanı ciddi qanun pozuntusuna rast gəlməyiblər.

Onun sözlərinə görə, müşahidə missiyası bu qərara gəlib ki, seçkilər Azərbaycan Konstitusiyası və qanunvericiliyinə uyğun, rəqabətli, demokratik şəkildə həyata keçirilib: "MDB müşahidə missiyası növbədənkənar parlament seçkilərini izləmək üçün Azərbaycan dövlətinin dəvətilə təşrif buyurub.

*(Ardı 4-cü səh.)*

*(Əvvəli 3-cü səh.)*

Yanvarın 19-dan öz işinə başlamış missiya seçkilərə hazırlıq prosesində və səsvermədə iştirak edib. Seçkilərə MDB müşahidə missiyasının 252 müşahidəçisi akkreditasiya olunub. Onun tərkibinə Belarus, Rusiya, Qırğızıstan, Qazaxıstan və eləcə də digər MDB ölkələrindən olan müşahidəçilər daxildir. Onların sərbəst şəkildə fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb". V.Quminskiy seçki qanunvericiliyini analiz edib və onun azad seçki keçirməyə imkan verdiyini vurğulayıb: "Seçkilərin keçirilməsinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası və Seçki Məcəlləsi təşkil edib". Missiya rəhbəri bildirib ki, bəzi məntəqələrdə kiçik pozuntulara rast gəlinsə də, bunlar seçkinin gedişatında əhəmiyyətli rol oynamayıb: "Mərkəzi Seçki Komissiyası seçicilərin məntəqələrə gəlib rahat şəkildə səs vermələri üçün hər cür şərait yaradıb. Onlara lazım olan bütün informasiyalar təqdim edilib. Seçki pozuntularının qeydiyyatı üçün qərargah yaradılıb, Kütləvi İnformasiya Vasitələrinin öz işlərini həyata keçirməsində heç bir maneə aşkarlanmayıb. Seçki gününə qədər missiya ölkənin 20 regionunda müşahidə aparıb. Qeyd etmək istərdim ki, hava şəraitinə görə bəzi dağlıq bölgələrdə monitorinq aparmaq imkanımız olmayıb. Lakin ölkənin əksər regionlarından əldə etdiyimiz məlumatlar onu deməyə əsas verir ki, həmin bölgələrdə də seçki qanunvericiliyə uyğun şəkildə təşkil olunub. Biz məntəqələrdə əldə etmək istədiyimiz hər bir məlumatı öyrənə bilmiş, suallarımıza cavab almışıq".

O, seçicilərin siyahısının hər il yeniləndiyini də diqqətə çatdırıb: "Məntəqələrdə səsvermə üçün şərait yaradılıb. Bizdə kimsə maneə yaradılması ilə bağlı məlumat yoxdur. Seçkilərdə iştirak etmək istəyən namizədlərin sayı əvvəlki illərdən çox idi. Bu seçicilərə daha layiqli namizədi seçmək şansı qazandırıb".

Missiya rəhbəri seçki gününə qədər bir sıra dövlət qurumları ilə görüşlər keçirdiklərini və daxil olan şikayətləri analiz etdiklərini deyib: "Seçki günündə isə MSK-ya 260 müraciət daxil olub, onların çoxu kiçik nöqsanlardır. Lakin müraciətlərin hamısı ilə bağlı tam məlumatımız yoxdur. Biz öz qeydlərimizi seçkinin rəsmi nəticələrindən sonra təqdim edəcəyik. Onu da bildirmək istərdim ki, yerli və beynəlxalq müşahidəçilərin sayı da kifayət qədər yüksək olub. Bu da seçki prosesini izləməyə böyük imkan verib. Biz hamımız gördük ki, haradasa seçki məntəqəsinin vaxtında açılmaması ilə bağlı məlumat yoxdur. Səsvermə sakit və yüksək şəkildə təşkil olunub. Bəzi nöqsanlar qeyd edilib, məsələn, 15-ci dairənin məntəqələrindən birində ikinci dəfə səs vermək cəhdinin qarşısı müşahidəçi tərəfindən alınıb. Lakin dediyim kimi nöqsanlar əhəmiyyətli dərəcədə deyil".

### Rusiya Federasiya Şurası seçkilərin gedişindən razı qaldı

Seçkilər mənə və mənim həmkarlarıma yaxşı təsir bağışladı. Bunu isə Rusiya Federasiyası Şurasından müşahidə missiyasının üzvü Arkadi Çernitski mətbuat konfransında deyib.

O bildirib ki, səsvermə zamanı nəinki ciddi, hətta xırda pozuntular da aşkar edilməyib: "Görünür ki, seçki komissiyasının üzvləri reqlamentə tam əməl etməyə çalışıblar. Milli Məclisin yeni formalaşacaq tərkibinə Azərbaycan naminə məhsuldar iş görməyi arzulayırıq".

### Türkiyə müşahidə missiyası Azərbaycanda seçkilərə mənfi baxanları düz yola çağırdı

Türkiyə Böyük Millət Məclisin Müşahidə Missiyasının üzvləri Azərbaycanda fevralın 9-da keçirilən parlament seçkiləri ilə rəylərini açıqlayıb. Milli Məclisə fevralın 9-da keçirilən növbədənkənar seçkilərin nəticələri ilə əlaqədar keçirilən tədbirdə Türkiyə Böyük Millət Məclisinin (TBMM) Müşahidə Missiyasının üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım əvvəlcə Azərbaycan xalqını seçkilərin baş tutmasına görə təbrik edib.

Müşahidəçi əlavə edib ki, Azərbaycanda insanlar öz istədikləri insanlara səs verərək onları qalib ediblər:

"Seçkilərdə qalib gələn namizədləri təbrik edirəm. Eyni zamanda, qalib gələməyən namizədləri də cəsarətlərinə görə təbrik edirəm".

TBMM-in üzvü Orhan Erdem deyib ki, seçki günündə müşahidəçilər iki qrupa ayrılaraq Bakı və Sumqayıtda prosesi izləyiblər.

Azərbaycanda çox layiqli gənclərin yetişdiyini deyən O.Erdem namizədlərin siyahısında gənclərin sayının çox olmasından məmnun olduğunu söyləyib.

TBMM-in üzvü Yunus Kılıç bildirib ki, Azərbaycanda müxtəlif seçkilərdə türkiyəli müşahidəçilər həmişə iştirak ediblər.

Seçkiyə hazırlıq dövründə də müəyyən işlərlə tanış olduqlarını deyən Y.Kılıç qeyd edib ki, namizədlərin sayının çox olması, 20-yə yaxın partiyanın seçkidə iştirakı seçkinin obyektiv və rəqabətli şəraitdə keçdiyini deməyə əsas verir.

O əlavə edib ki, seçki məntəqələrində kameraların olması, müşahidəçilərin prosesin istənilən yerdən izləyə bilməsi, seçicilərin istənilən kabinədə səs verə bilməsi çox gözəl haldır: "Əslində, Azərbaycanın seçkiyə çox sayda beynəlxalq müşahidəçi dəvət etməsi onun açıq ölkə olduğunu, hər şeyin şəffaf olduğunu göstərir. Məntəqələrdə heç kim heç kəsin işinə qarışmırdı, amma hər kəs prosesi müşahidə edə bilirdi. Namizədlərin seçkiyə qədər ev-ev gəzərək özlərini tanıdıblar. Burada da bir demokratik davranış var".

TBMM-in üzvü İbrahim Aydemir Azərbaycanın Türkiyə üçün çox dəyərli ölkə olduğunu xüsusi vurğulayıb: "Burada prosesların normal keçməsi bizi sevindirər. Biz seçkilərdə də ancaq Azərbaycanın iftixar duya biləcəyi bir şərait gördük. Bəzi ölkələr Azərbaycandan dərs almalı, mənfi baxışlarını kənara qoymalıdırlar".

TBMM-in üzvü Uğur Bayraktutan məntəqələrdə kameraların olmasını, seçicilərin sərbəst səs verə bilməsini çox müsbət hal kimi dəyərləndirib: "Biz daha bir uğur qazanan Azərbaycanı tərk edərək Türkiyəyə geri dönəcəyik. "Azərbaycanın yolu uğurlu olsun" deyirik".

### Gürcüstanlı müşahidəçilər 10 məntəqədə müşahidə apardılar

Azərbaycan parlament seçkiləri layiqincə keçirdi.

Bunu Gürcüstandan olan müşahidə missiyasının üzvü Georgi Kalandaşvili deyib. O bildirib ki, beş nəfərdən ibarət Gürcüstan nümayəndə heyəti Bakıdakı seçki məntəqələrində müşahidə aparıb: "Biz iki seçki prosesini müşahidə etmişik. Prosesə kənardan hər hansı bir müdaxilənin şahidi olmadıq. Nümayəndə heyətimiz Azərbaycan xalqını layiqli parlament seçkiləri münasibətilə təbrik edir".

Gürcüstan nümayəndə heyətinin digər üzvü Georgi Şarabidze öz növbəsində qeyd edib ki, namizədlərə və müşahidəçilərə bərabər şərait yaradılmışdı: "Seçkiləri həm xarici, həm də yerli müşahidəçilər izləyib. Hər şey yüksək səviyyədə keçib, hər hansı bir pozuntu qeydə alınmayıb".

Onun sözlərinə görə, 10 seçki məntəqəsində müşahidə aparıblar: "Bu müddət ərzində sakit, demokratik seçkilər müşahidə etdik, hər şey dinc şəraitdə keçdi".

### Danimarkalılar prosesin Seçki Məcəlləsinə uyğunluğuna diqqət çəkdi

Parlament seçkiləri Azərbaycanın Seçki Məcəlləsinə uyğun keçirilib. Bunu Danimarkadan olan müşahidə missiyasının üzvü Niklas Milzers deyib.

O bildirib ki, müşahidəçi qismində həm Danimarkada, həm də digər ölkələrdə seçkilərdə iştirak edib və bu sahədə kifayət qədər təcrübəyə malikdir: "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə keçdi".

N.Milzers əlavə edib ki, Azərbaycan MSK müşahidəçiləri daha səmərəli iş üçün bütün zəruri materiallarla təmin edib.

### Fransalı müşahidəçi qısa və məzmunlu danışdı

Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə, beynəlxalq standartlara uyğun keçirildi. Bunu fransalı müşahidəçi Valenten Esküde mətbuat konfransında deyib.

O bildirib ki, Sumqayıt seçki dairəsinin bir neçə məntəqəsində olub: "Seçkilərin beynəxalq standartlara uyğun keçirilməsi üçün bütün şərait yaradılmışdı. Seçkilərin bu səviyyədə keçirilməsi Azərbaycan qanunvericiliyinin səmərəliliyinin nəticəsidir".

### İsrailli müşahidəçilər də seçkinin nəticəsini müsbət qiymətləndirdi

Azərbaycanda parlament seçkilərini izləyən israilli müşahidəçilər seçkinin nəticəsini müsbət qiymətləndirib. Milli Məclisə növbədənkənar seçkilərin nəticələri ilə əlaqədar tədbirdə İsraildən olan beynəlxalq müşahidəçi Roman Gureviç deyib ki, seçkilər şəffaf və effektiv keçirilib.

Onun sözlərinə görə, seçkilərdən bir neçə gün əvvəl Bakıya gəliblər.

Bakıda son illər ərzində yüksək inkişafın olduğunu nəzərə çatdıran R.Gureviç bildirib ki, Bakının 6 məntəqəsində apardıqları müşahidələrə əsasən, səsvermədə gənclər çox iştirak ediblər: "Bu da müsbət haldır. Seçkidə hər kəs öz işini bilirdi və qanun pozuntusu qeydə alınmayıb".

Digər müşahidəçi Boris Qrosman əlavə edib ki, artıq Azərbaycanda seçkilərdə beynəlxalq müşahidəçilərin iştirak etməsinə ehtiyac yoxdur: "Mən düşünürəm ki, siz artıq özünüz başqa ölkələrdə müşahidəçi kimi iştirak edə bilərsiniz. Seçkiyə babalar, nənələr öz nəvələri ilə gəlirdilər. Belə soyuq, şaxtalı və küləkli havada seçicilərin gələcəyinə ümid etmirdik. Amma insanlar çox həvəslə, sevinərək seçkiyə gəlirdilər".

B.Qrosman bildirib ki, İsrail Azərbaycanı sevir və dəstəkləyir. Azərbaycan da İsrail üçün həmişə qardaş və dost ölkə olacaq.

Müşahidəçi Aleksey Tessarskiy isə hesab edir ki, müşahidələrinə əsasən, Azərbaycanda insanlar üçün onların həyatlarını dəyişdirən demokratik seçkilərin keçirilməsi və orada iştirak vacibdir. Ona görə də insanlar seçkidə fəal iştirak edirdilər, çünki onlar ölkənin tarixinə biganə deyillər.

### Pakistanlı müşahidəçilər Bakıda seçki ilə bağlı mətbuat konfransı keçirdi

Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub. Seckі-2020.az saytının xəbərinə görə, bunu Pakistanın İslamabad Qlobal və Strateji Araşdırmalar Mərkəzinin baş direktoru Xalid Teymur Əkrəm Bakıda keçirdiyi mətbuat konfransında deyib.

O yeni formalaşmış parlamentin Azərbaycanın inkişafı və çiçəklənməsi üçün daha yaxşı işlər görəcəyinə əminliyini bildirib.

Pakistan parlamentinin keçmiş vitse-spikeri Murtuza Cavid Abbasi isə vurğulayıb ki, seçki ərəfəsində vəziyyəti müşahidə ediblər, Gəncədə və Naxçıvanda olublar. Bu gün səhər isə Bakıdakı bir sıra məntəqələrə baş çəkiblər.

Mərkəzi Asiya və Azərbaycan üzrə ekspert Mahmud Əsilxanın sözlərinə görə, müşahidə zamanı hər hansı pozuntuya rast gəlməyiblər. O deyib: "Yeni formalaşacaq parlamentin Azərbaycanda siyasi sistemin müasirləşməsində və demokratikləşməsində vacib rol oynayacağına əminik".

### Almaniyalı və yunanıstanlı müşahidəçilər seçkilərin nəticələrinə oxşar mövqe sərgilədilər

"Hər şey gözlədiyimiz kimi oldu. Seçkilər demokratik və şəffaf keçdi. Seçki məntəqələrində çox sayda seçici və müşahidəçi var idi. Bu, xüsusi olaraq diqqətimi cəlb etdi". Bu fikirləri Milli Məclisə seçkiləri müşahidə edən Almaniyanın Bavariya bölgəsi parlamentinin deputatı Uli Henkel mətbuat konfransında deyib.

Bavariya parlamentinin digər nümayəndəsi Ulrix Singer də həmkarı ilə eyni fikri bölüşdüyünü bildirib. O qeyd edib ki, hər şey qaydalara uyğun idi: "Seçki məntəqələrində bütün suallarımıza cavab tapdıq. Heç kim bizə problem yaratmadı. Bu, bizim üçün önəmli idi".

Yunanıstan parlamentinin deputatı Lazaros Tsavdaridis isə deyib ki, onlar dörd məntəqədə müşahidə aparıblar və heç bir qayda pozuntusu aşkarlanmayıb: "Seçicilər, müşahidəçilər, siyasi partiyaların nümayəndələri və könüllülər ilə söhbətləşdik. Qənaətim budur ki, seçkilər yüksək səviyyədə və demokratik keçib".

Yunanıstan parlamentinin digər deputatı Katerina Monogiou də qeyd edib ki, parlament seçkiləri demokratik keçib.

### Fransalı senator seçki məntəqələrində nə gördü?

Fevralın 9-da parlament seçkilərini izləmək üçün 20 seçki məntəqəsində müşahidə apardım. Həmçinin bir məntəqədə səslərin sayılması prosesini izlədim. Burada seçkilərin necə keçirilməsi və səslərin sayılması barədə çox dəqiq məlumat əldə edə bildim, bir sıra yeniliklərlə də tanış oldum. Ən maraqlı cəhət seçki zamanı səs verən şəxslərin barmaqlarına rəngsiz mürəkkəbin vurulmasıdır ki, bu da bir seçicinin təkrar səs verməsinin qarşısını alır. Bu, digər ölkələrin praktikasında mövcud deyil. Bu sözləri Fransa Senatının Xarici əlaqələr və müdafiə komitəsinin vitse-prezidenti Joel Qerio Bakıda keçirdiyi mətbuat konfransında deyib.

"Müşahidə apardığımız məntəqələrdə qaydalara ciddi riayət olunurdu. Bir məntəqədən digərinə getməkdə çətinlik çəkmədik. Ümumilikdə, proses müsbət məcrada keçirdi. Təşkilatçılara minnətdarlığımı bildirirəm", - deyə Joel Qerio bildirib.

Fransanın Bol şəhərinin meri İv Metero isə 8 seçki məntəqəsində müşahidə apardığını qeyd edib. O deyib: "Mən hüquqşünasam. Burada Seçki Məcəlləsini nəzərdən keçirmək imkanım oldu. Seçki Məcəlləsi asan anlaşıla bilən formada hazırlanıb. Bütün namizədlər ondan asanlıqla istifadə edə bilərlər. Seçkilər normal şəraitdə keçdi".

### ABŞ müşahidəçiləri də Azərbaycanda parlament seçkilərində ciddi nöqsanlar görmədilər

ABŞ ictimaiyyətinin Müşahidə Missiyası Azərbaycanda keçirilən parlament seçkilərindən həddindən artıq məmnun olduğunu bildirib.

"Trend"in məlumatına görə, Azərbaycanda növbədənkənar parlament seçkiləri ilə bağlı keçirilən mətbuat konfransında ABŞ ictimaiyyətindən olan müşahidəçilər əhalinin yüksək siyasi fəallığını, missiyanın paytaxtdakı müxtəlif seçki məntəqələrində müşahidə etdiyi seçkilərə ciddi hazırlıqlarını və ümumilikdə ölkədən məmnun olduqlarını qeyd ediblər.

Nyu Yorkdan olan ABŞ ictimaiyyətinin nümayəndələrinin missiyasının müşahidəçisi Buxara Yəhudiləri Konqresinin ABŞ və Kanadadakı əlaqələndiricisi Rafael Nektal, üçüncü dəfə Azərbaycanda olduğunu və ölkənin parlament seçkilərində beynəlxalq müşahidəçi kimi iştirak etməkdən çox məmnun olduğunu bildirdi.

Müsbət cəhətlərdən Nektal ilk növbədə seçici fəallığının yüksək olduğunu qeyd edib: "Mənim olduğum Qubada çox soyuq idi, təxminən beş dərəcə, lakin bir çox insan məntəqəyə gəlməyə tənbəllik etməyib".

San Dieqodan olan müşahidəçi Martin Kruminq dedi ki, bu, onun Azərbaycana beşinci səfəridir və o da seçkilərdə iştirak etməkdən məmnundur: "İnsanlar səs verməyə gəlirdilər və sonra bir müddət qaldırlar, yəni iştirak edirdilər, o da çox maraqlıdır. Buradakı insanlar bunu adi bir şey hesab edirlər, lakin ABŞ-da bu cür fəaliyyət, məsələn, müşahidə edilmir - xalqımız gəlir, səs verir və dərhal öz işləri dalınca gedirlər. Bundan əlavə, mən yerli müşahidəçilərlə şəxsən söhbət etdim və bölmələrin birində hətta dadlı çay da verdiyimiz bir hal oldu. Bunu Amerikada görməyəcəksiniz".

Los-Ancelesdən olan müşahidəçi, sahibkar Mitç Silberman, öz növbəsində yerli sakinlərlə dialoq göstrib ki, əhali çox vətənpərvər və siyasi fəaldır, bu da Amerika və Azərbaycan xalqlarını bir araya gətirir.

Silbermanın seçki prosesində qeyd etdiyi əsas amillər gənclərin namizəd siyahılarında təmsil olunması və seçki məntəqələrində qaydalara əməl olunmasıdır.

Fevralın 10-da seçkiləri müşahidə edən ATƏT PA, AŞ PA və ATƏT DTİHB-nin birgə missiyası ilkin rəylərini açıqlayıblar. Birgə rəydə seçkilərə çox sayda namizədlərin qatılması seçkinin inklüziv xarakter daşıması kimi dəyərləndirilib. Seçici fəallığının səviyyəsi qənaətbəxş sayılıb. Seçki prosesinin normativlərə uyğun təşkil edildiyi qeyd edilib. Ermənistanın təcavüzü üzündən 10 seçki dairəsinin ərazisində seçki keçirilmədiyinin qeyd edilməsi sözsüz müsbət məqamlardandır. Səsvermə məntəqələrinin texniki cəhətdən yaxşı təşkil edildiyi də müsbət məqam kimi qeyd edilib.

Missiya rast gələnən neqativ hallara prosedur-təşkilati nöqteyi-nəzərdən qiymət verib və metodik tövsiyə xarakterli mövqe tutub. Missiyanın tutduğu iradlar prinsipcə nəticələrə təsir göstərmək gücündə deyil və Azərbaycandakından daha artıqlarına Avropanın öz ölkələrində daha geniş rast gəlinir.

**Məlum olduğu kimi, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirilib. Keçirilən parlament seçkilərində seçici fəallığı açıqlanıb. Məlum olub ki, 2 milyon 547 min 982 seçici səsvermədə iştirak edib.**




# Ölkədə 48 faiz seçici fəallığı - Azərbaycan bununla dünyaya nəyi göstərdi...

***Məhərrəm Zülfüqarlı:** "Müşahidələr onu göstərir ki, Azərbaycanda seçici fəallığı Avropa ölkələrindən üstündür"*

Mərkəzi Seçki Komissiyası Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov bildirib ki, parlament seçkilərində seçici fəallığı 47,81 faiz olub. Bununla belə, keçirilmiş parlament seçkilərində ən yüksək və ən aşağı seçici fəallığı olan dairələr açıqlanıb. Belə ki, seçici fəallığının ən yüksək olduğu dairə 1 saylı Şərur-Sədərək Seçki Dairəsi olub. 1 saylı Şərur-Sədərək seçki dairəsindən 76,1 faiz (46 min 225 seçicidən 29419 nəfər) seçici səsvermədə iştirak edib. Seçici fəallığının ən aşağı olduğu dairə isə 17 saylı Yasamal üçüncü Seçki Dairəsidir. Bu seçki dairəsində seçici fəallığı 17,84 % (30 min 534 seçicidən 5447 nəfər) olub.

Adətən bir sıra ölkələrdə seçici fəallığı o qədər də yüksək olmur, xüsusən də parlament və bələdiyyə seçkilərində. Bu baxımdan müqayisə aparanda Azərbaycanda vəziyyət digər ölkələrə baxanda yaxşıdır. Başqa bir tərəfdən, seçki günü kəskin hava şəraitini nəzərə alsaq, 48 faiz seçici fəallığının olması normal sayıla bilər.

Maraqlıdır, bəs ekspertlər parlament seçkilərindəki seçici fəallığının səviyyəsini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, əvvəlki illərdən fərqli olaraq, namizədin qalib gəlməsi üçün kvota yoxdur: "Yəni namizəd nisbi üstünlüklə qalib gələ bilir. Kim çox səs toplayıbsa, o, deputat olur. Ancaq bir məqamı qeyd edim ki, 2015-ci ildə parlament seçkilərində seçici fəallığı daha yüksək idi. Belə ki, ötən parlament seçkilərində seçici fəallığı 55 faiz idi. Əslində, burada təəccüblü bir şey yoxdur. Ona görə ki, demokratik ölkələrin hamısında bu belədir. O mənada ki,

*"Bütün hallarda, son seçkilərdə seçici fəallığının 48 faiz olması müsbət göstəricidir"*

müəyyən dövrdə seçici fəallığı aşağı olur, bəzən yuxarı olur. Hər halda, müşahidələr onu göstərir ki, Azərbaycanda seçici fəallığı Avropa ölkələrindən üstündür. Avropa ölkələrində seçici fəallığı bundan qat-qat aşağıdır. Hətta bəzi ölkələrdə seçkiyə gəlməməklə bağlı cinayət işi açırlar. Bizdə sərbəstlik olduğuna görə bu, müsbət qarşılanmalıdır. Parlament seçkilərində seçici fəallığının səviyyəsi müxtəlif səbəblərdən qaynaqlanır. Buna əsasən fərdi qaydada yanaşmaq lazımdır. Elə namizəd var ki, populyarlıq səviyyəsi yüksəkdir və bu səbəbdən səs verənlərin sayı çoxdur. O üzdən, seçkiyə gələnlər çoxluq təşkil edir. Ona görə də hər dairə üzrə götürəndə müxtəlif seçici fəallığı var. Bütün hallarda, Azərbaycanda parlament seçkilərində seçici fəallığının 48 faiz olması müsbət göstəricidir".

***Vidadi ORDAHALLI***

**Azərbaycanda növbədənkənar parlament seçkiləri baş tutmuş sayıldı. Seçki günü çox əlverişsiz havaya baxmayaraq, səs verən vətəndaşların ümumi sayı seçkinin nəticələrini elan etmək üçün əsas vermiş oldu.**



# 6-cı parlamentin tərkibindəki yeniliklər - ciddi araşdırma tələb edilən dairələr...

***Samir Adıgözəlli:** "...hüquqi qiymətin verilməsi həm də seçici məmnunluğu yarada bilər"*

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov keçirdiyi ilk mətbuat konfransında seçkinin ümumi nəticələrini açıqlasa da, bəzi dairələrlə bağlı yekun qərarın verilmədiyini bildirdi. İlk açıqlamada bildirildi ki, 17 saylı Yasamal 3-cü Seçki Dairəsi, 35 saylı Xətai 3-cü Seçki Dairəsi, 44 saylı Sumqayıt-Xızı Seçki Dairəsi, 42 saylı Sumqayıt 2-ci Seçki Dairəsi, 77 saylı Astara Seçki Dairəsi, 123 saylı Kəlbəcər Seçki Dairəsi və 125 saylı Zəngilan-Qubadlı Seçki dairəsindən qalib namizədlər müəyyənləşməyib. Maraqlıdır ki, MSK adından verilən növbəti rəsmi bəyanatda qaliblərin müəyyənləşmədiyi dairələrlə bağlı açıqlanan məlumat birincidən fərqləndi. İkinci məlumatda bildirildi ki, 33 saylı Xətai 1-ci, 35 saylı Xətai 3-cü, 60 saylı Salyan-Neftçala, 74 saylı Lənkəran Kənd, 79 saylı İmişli, 80 saylı İmişli-Beyləqan və 81 saylı Beyləqan seçki dairələrindən çox ciddi müraciətlər daxil olub: "Ola bilsin ki, bu müraciətlərin əsası yoxdur. Amma biz bu müraciətlərin hər birini araşdıracağıq. Sabah da bizə hansısa başqa dairələrdən müraciətlər daxil olsa, gecikdirmədən bu müraciətlər ciddi araşdırılacaq".

Hələ də MSK bəzi dairələrlə bağlı yekun nəticəni elan etməyib. Yəqin ki, gün ərzində bu məsələ öz həllini tapmış olacaq. Açıqlanan rəsmi məlumatlara görə, seçici fəallığı 47,48 faiz olub. Ölkədə keçirilən seçkiləri 58 ölkədən olan müşahidəçilər izləyiblər. Onların da, demək olar ki, hamısı seçkinin demokratik keçirildiyi ilə bağlı qənaətlərini bildiriblər. Bütün bunlara baxmayaraq, sosial şəbəkələrdə bəzi məntəqələrdə baş verən neqativliklərlə də bağlı materiallar ictimailəşdirilib. Həmin faktlarla bağlı MSK sədri deyib ki, əhalinin gözləntilərinin əksinə hərəkət edən və ümidlərə zərbə vuran şəxslər ciddi cəzalanacaq, o cümlədən, sosial şəbəkədə yayılan məlumatların hər biri dəqiqliklə araşdırılacaq. Hələlik əldə olunan nəticələrə görə, növbədənkənar parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının (YAP) 69 namizədi qalib elan olunub. Bu rəqəm Mərkəzi Seçki Komissiyasının (MSK) nəticələri elan etmədiyi 7 dairəyə görə dəyişə bilər. YAP-dan sonra ikinci ən çox mandat alan partiya Vətəndaş Həmrəyliyi Partiyasıdır (VHP). Partiyanın lideri, Xalq şairi Sabir Rüstəmxanlı 61 saylı Nefçala Seçki Dairəsindən 49,2 faiz səslə, 69 saylı Cəlilabad-Biləsuvar-Ma-

*"Ümumən seçkinin nəticələrini tam qənaətbəxş saya bilərik"*

sallı Seçki Dairəsindən Fəzail İbrahimli 51 faiz səslə, 58 saylı Hacıqabul-Kürdəmir Seçki Dairəsindən Rəfael Hüseynov 51 faizlə qalib elan olunublar. Daha sonra 26 saylı Xətai 4-cü Seçki Dairəsindən BAXCP sədri Qüdrət Həsənquliyev, 26 saylı Sabunçu 2-ci Seçki Dairəsindən Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, 60 saylı Salyan-Nefçala Seçki Dairəsindən Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, 87 saylı Ağsu-İsmayıllı Seçki Dairəsindən Vəhdət Partiyasının sədri Tahir Kərimlinin və Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadənin Milli Məclisin üzvü olacaqları təsdiqlənib.

Bəs seçkini yaxından izləyən ekspertlər ümumi vəziyyəti necə dəyərləndirirlər?

Bakı şəhərində seçkinin monitorinqini aparan İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli qəzetimizə açıqlamasında bildirdi ki, paytaxtın bir neçə aktiv məntəqəsində seçki prosesini yaxından izləyiblər: "Gəldiyim tam qənaəti sizinlə bölüşmək istəyirəm. Seçki günü havanın həddən artıq soyuq olması seçici fəallığına ciddi təsir etdi. Buna baxmayaraq, seçki baş tutdu. Məntəqələrdə seçicilərə şəffaf səs vermək üçün tam şərait yaradılmışdı. Ancaq hiss olunurdu ki, bəzi namizədlərin nümayəndələri, hətta özləri məqsədli şəkildə provokativ addımlar atırlar. Dərhal həmin hadisələri lentə alıb, sosial şəbəkələrdə paylaşırdılar. Çoxlu sayda beynəlxalq müşahidəçinin olduğunun şahidi olduq. Hava şəraiti əlverişli olmadığından, bəzi məntəqələrdə elektrik enejisinin təminatında yaranan fasilələr dərhal generatorlar vasitəsilə aradan qaldırılırdı.

Məntəqələrin böyük əksəriyyəti generatorla təchiz olunmuşdu. Müşahidə kameraları ilə bütün məntəqələrdəki səsverməni izləmək olurdu. Ancaq mən istərdim ki, baş verən bəzi kobud qanun pozuntuları da mütləq araşdırılsın. Çünki ortada doğrudan da seçkinin şəffaflığına kölgə sala biləcək kadrlar mövcuddur.

Onlara hüquqi qiymətin verilməsi həm də seçici məmnunluğu yarada bilər. Ümumən seçkinin nəticələrini tam qənaətbəxş saya bilərik".

***Məhəmmədəli QƏRİBLİ***

# Seçki günü ictimai qaydanın heç bir kobud pozuntu faktı olmadı - DİN-in bəyanatı nələrə söykənir...

**Fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı daxili işlər orqanları tərəfindən qanunla müəyyən olunmuş vəzifələrin icrası təmin edilib, təhlükəsizlik və hüquq qaydası etibarlı qorunub.**



## *Elçin Mirzəbəyli: "Bunun başlıca səbəbi onunla bağlıdır ki, Azərbaycan vətəndaşları ölkədə sabitliyə xüsusi önəm verirlər"*

Daxili İşlər Nazirliyinin seçkilərlə bağlı yaydığı məlumata görə, ictimai asayişin kobud surətdə pozulması halı qeydə alınmayıb: "Saat 19.00-a olan müddətə ictimai asayişin kobud surətdə pozulması, seçki prosesinə polisin qanunsuz müdaxilə etməsi faktı qeydə alınmayıb. Polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edib, qanunauyğun tədbirlər görüb".

Göründüyü kimi, son parlament seçkilərində ictimai asayişin kobud surətdə pozulması halları qeydə alınmayıb. Hansı ki, bundan əvvəl keçirilən parlament seçkilərində belə hallar qeydə alınırdı. Bəzi seçki dairələrində ictimai asayişin kobud surətdə pozulması halları baş verirdi. Seçki amilindən istifadə edən müəyyən qüvvələr bundan öz məqsədləri üçün yararlanaraq, ictimai asayişi kobud formada pozur və yaxud da pozmağa cəhd edirdilər. Bu dəfə isə, qeyd edildiyi kimi, bunların heç biri baş vermədi.

Maraqlıdır, belə halın baş verməməsi nəyin təsirindən irəli gəlir? Polisin ictimai asayişin yüksək səviyyədə qorunması ilə bağlı gördüyü işlər, seçicilərin öz hüquqlarını bilməsi bunda nə kimi rol oynayıb?

Məsələyə münasibət

*"İctimai asayişin qorunmasında polisin fədakarlığı böyükdür"*

bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, bir sıra amillər bunda rol oynayıb: "Bunun başlıca səbəbi onunla bağlıdır ki, Azərbaycan vətəndaşları ölkədə sabitliyə xüsusi önəm verirlər. Məsələ ondadır ki, seçicilər ölkədə müşahidə olunan inkişafın bilavasitə sabitliklə bağlı olduğunu yaxşı bilirlər. Digər tərəfdən, bunda ölkədəki polis işçilərinin əməyini xüsusi vurğulamaq lazımdır. Çünki ictimai asayişin qorunmasında onların fədakarlığı böyükdür. Ölkədəki seçkilərin şəffaf və demokratik keçirilməsi üçün bütün münbit şərait yaradılıb. Hüquq-mühafizə orqanları da seçkinin təhlükəsizliyini təmin edirlər. Bu aspekt də ictimai asayişin qorunmasında mühüm rol oynayır. Ən nəhayət, bu, ölkə vətəndaşlarının mədəni səviyyəsinin yüksək olmasından irəli gəlir. Deməyim odur ki, bütün bu sadalananların vəhdət şəklində olması seçki günü ictimai asayişin kobud surətdə pozulmasına imkan vermədi. Hesab edirəm ki, bütün bunlar müsbət göstəricidir. O baxımdan bunu təqdir etmək lazımdır".

***Vidadi ORDAHALLI***

# 9 fevral səsverməsinə qanunsuz polis müdaxiləsinə dair bircə fakt da qeydə alınmadı

**Bu gün cəmiyyətimizdə aktual, diqqətlə izlənən hadisə 9 fevral növbədənkənar parlament seçkilərinin nəticələridir. Seçki prosesi zamanı əminamanlığın, sabitliyin təmin olunmasında Azərbaycan polisinin yaxından iştirakı diqqəti çəkdi.**

*"Bizim polisin nümunəvi davranışı, seçkilərə heç bir qanunsuz müdaxilə etməməsi Avropa polisinin özünə bir nümunə olmalıdır"*

## *Şəmsəddin Əliyev: "Bu da polisin peşəkarlığından, öz işinə məsuliyyətlə yanaşmasından, içdiyi anda sədaqətindən irəli gəlir"*

Başqa ölkələrdə keçirilən seçkilərdən fərqli olaraq, ölkəmizdə keçirilən səsverməyə hər hansı bir qanunsuz polis müdaxiləsi olmayıb. Bu faktı Daxili İşlər Nazirliyi (DİN) də təsdiqləyib. DİN-dən mətbuata bildirilib ki, fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı daxili işlər orqanları tərəfindən qanunla müəyyən olunmuş vəzifələrin icrası təmin edilib, təhlükəsizlik və hüquq qaydası etibarlı qorunub. Qeyd edilib ki, saat 19.00-a olan müddətə ictimai asayişin kobud surətdə pozulması, seçki prosesinə polisin qanunsuz müdaxilə etməsi faktı qeydə alınmayıb. "Polis yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda - rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa edib, qanunauyğun tədbirlər görüb", - DİN-dən bildirilib.

"Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında vurğuladı ki, bu, Azərbaycan polisinin nümunəvi xidmət göstərdiyinin bariz örnəyidir. "Azərbaycan polisinin nəinki seçki prosesində, eyni zamanda, ölkəmizin evsahibliyi ilə keçirilən beynəlxalq tədbirlər zamanı öz vəzifəsini çox yüksək səviyyədə yerinə yetirməsi faktdır. Bizim polisin nümunəvi davranışı, seçkilərə heç bir qanunsuz müdaxilə etməməsi Avropa polisinin özünə bir nümunə olmalıdır. Çünki biz Avropa ölkələrində keçirilən seçkilər zaman polisin seçkiyə qanunsuz müdaxiləsinin şahidi oluruq".

Azərbaycan polisinin sabitliyin təmin edilməsi sahəsində öz fəaliyyətini, vəzifəsini tam olaraq yerinə yetirdiyini deyən Ş.Əliyev hesab edir ki, polislər DİN rəsmiləri tərəfindən verilən tapşırıqları qüsursuz yerinə




yetiriblər: "Bu onu göstərir ki, yuxarı rəhbərlik polisə doğru-dürüst təlimat verib və polis də bu təlimatı lazımı qaydada yerinə yetirib. Azərbaycan polisi bu işin məsuliyyətini öncədən görüb. Bu işin yüksək səviyyədə həyata keçirilməsi üçün onlara tapşırıqlar verilib. Polisin bu işə məsuliyyətlə yanaşmasının digər səbəbləri də var. Bu da seçki prosesini beynəlxalq təşkilatların təmsilçilərinin yaxından izləməsi ilə bağlıdır. Beynəlxalq təşkilatlar da seçki prosesində Azərbaycan polisinin xidmətindən məmnunluq duyublar. Hətta onlar bunu verdikləri açıqlamalarda da qeyd etdilər. Seçkinin heç bir insident baş vermədən həyata keçirilməsi, polisin bu prosesə heç bir qanunsuz müdaxilə etməməsi, insanların heç bir maneə olmadan öz seçki hüquqlarından istifadə etmələri 60 faiz olmasa da, heç olmasa 50 faiz polisin xidmətinin düzgün təşkili ilə bağlıdır. Bu da polisin peşəkarlığından, öz işinə məsuliyyətlə yanaşmasından, içdiyi anda sədaqətindən irəli gəlir. Bunu beynəlxalq müşahidəçilər də qeyd etdilər" - deyə Ş.Əliyev vurğuladı.

***İradə SARIYEVA***

# Elmar Məmmədyarov beynəlxalq konfransda Ermənistanı belə vurdu - təcavüzkarın ucbatından beynəlxalq nüvə təhlükəsizliyinə daha çox töhfə verə bilmirik

**Xarici işlər naziri Elmar Məmmədyarov "Nüvə Təhlükəsizliyinə dair Beynəlxalq Konfrans: səylərin davam etdirilməsi və gücləndirilməsi" konfransında çıxış edib. Nazir çıxışında deyib:**

-Azərbaycan nüvə təhlükəsizliyi sahəsində davam edən tendensiyaları yaxından izləyir. Biz mövcud nüvə təhlükəsizliyi təşəbbüslərini dəstəkləyirik və bu sahədə beynəlxalq çoxtərəfli mexanizmlərə xüsusi diqqət yetiririk. Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (NSYM) nüvə silahsızlaşdırılması, yayılmama və nüvə enerjisindən dinc məqsədlərlə istifadə üçün qlobal rejimin dayağıdır. Nüvə təhlükəsizliyi, xüsusən nüvə silahlarının yayılması ilə bağlı beynəlxalq ictimaiyyətin narahatlığını bölüşən Azərbaycan, müstəqilliyini əldə etdikdən sonra NSYM-ni ratifikasiya etdi və 1995-ci ildə Müqavilənin müddətsiz uzadılmasını dəstəklədi.

Biz mövcud və meydana çıxan nüvə təhlükəsizliyi təhdidlərindən narahatıq və onları həll etməyə sadiqik. Mövcud təhlükəsizlik mühitində nüvə və ya digər radioaktiv materialdan zərərli məqsədlər üçün istifadə edilməsi istisna edilmir. Bu təhdidin qlobal mahiyyəti bütün dövlətlərdən razılaşdırılmış hərəkət tələb edir. NSYM çərçivəsində təminatlar haqqında sazişlərə əməl olunmaması, yayılmamaq rejiminin davamlılığına və üzv dövlətlərin təhlükəsizliyinə təhdid təşkil edir. Bu baxımdan AEBA təminatları beynəlxalq sülhə və təhlükəsizliyə misilsiz töhfədir.

BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnamələrinə uyğun olaraq, Agentliyin yoxlama və monitorinq fəaliyyətini alqışlayırıq. Biz çoxtərəfli danışıqların və diplomatiyanın uğurunu əks etdirən Birgə Hərtərəfli Fəaliyyət Planının (BHFP) əhəmiyyətini vurğulayırıq; burada etiraf olunur ki, BHFP-nin müvəffəqiyyətlə həyata keçirilməsi, bütün tərəflərin BHFP-də nəzərdə tutulan üstünlüklərdən tam istifadə etmələri üçün öhdəliklərin tam yerinə yetirilməsini tələb edir.

Beynəlxalq əməkdaşlıq həmişə nüvə təhlükəsizliyi sahəsində səylərimizin mərkəzində olmuşdur. İnanırıq ki, bu sahədə əldə olunan irəliləyiş sülhü və təhlükəsizliyi möhkəmləndirir və etimadı artırır. Bu sahədə fəaliyyətlərimiz həmişə məqsədyönlü olmuşdur və qarşılıqlı hörmət və əməkdaşlıq ruhunda aparılmışdır.



Biz nüvə təhlükəsizliyi qaydaları və standartlarının hazırlanmasında AEBA-nın əsas rolunu tanıyırıq və qiymətləndiririk. Azərbaycan Agentlik ilə nüvə təhlükəsizliyinin müxtəlif aspektləri üzrə uğurlu əməkdaşlığı inkişaf etdirib. Biz mövcud səmərəli əməkdaşlığı dərinləşdirməyə hazırıq. Azərbaycan AEBA-nın İnsidentlər və Qeyri-qanuni Dövriyyə üzrə Məlumat Bazasına töhfə verməklə qanunsuz dövriyyə ilə bağlı beynəlxalq məlumat mübadiləsində iştirak edir.

AEBA-nın Texniki Əməkdaşlıq Proqramı çərçivəsində 2015-ci ildə Azərbaycan Respublikası və AEBA 2015-2020-ci illər üçün Ölkə Proqramının Çərçivə sənədini imzaladılar və o, normativ hüquqi infrastrukturun təkmilləşdirilməsi, radiasiya təhlükəsizliyi potensialı, nüvə materiallarının təhlükəsizliyi, radioaktiv tullantıların idarə olunması, həmçinin sərhəd və gömrük buraxılış məntəqələrinin radiasiya monitorinqi və nəzarəti sahələrində milli layihələrin əsasını təşkil edir.

Azərbaycan, həmçinin BMT-nin nüvə təhlükəsizliyinin gücləndirilməsi səylərini alqışlayır. Bu baxımdan Təhlükəsizlik Şurasının 1540 saylı qətnaməsinin və sonrakı qətnamələrinin tam şəkildə yerinə yetirilməsinin təmin edilməsi nüvə, kimyəvi və bioloji silahların, eləcə də onların çatdırılma vasitələrinin yayılmasının qarşısının alınmasında mühüm rol oynayır.

Azərbaycan Nüvə Terrorizmi ilə Mübarizə üzrə Qlobal Təşəbbüsün (NTMQT) tərəfdaş ölkəsi olandan bəri ölkənin nümayəndələri və milli ekspertləri NTMQT tədbirlərində və tematik təlimlərdə fəal iştirak edirlər. Bu forumlar Azərbaycanın nüvə təhlükəsizliyi sahəsində beynəlxalq öhdəliklərini yerinə yetirməsi çərçivəsində həyata keçirdiyi tədbirləri haqqında məlumat mübadiləsini aparmağa bir fürsət yaratdı. Bundan əlavə, tərəfdaş ölkələrimizlə qanunsuz dövriyyəyə qarşı mübarizə, yayılmama və normativ hüquqi bazanın gücləndirilməsi sahəsində ikitərəfli əməkdaşlığı davam etdiririk.

Nüvə təhlükəsizliyi nüvə texnologiyalarının idarə edilməsində və nüvə və ya digər radioaktiv materialların istifadəsi və ya daşınması mümkün olduğu hallarında fundamental əhəmiyyət kəsb edir. Bununla əlaqədar, Azərbaycanda bu cür materialların qorunması və nəzarətini gücləndirmək və nüvə təhlükəsizliyi hadisələrinə effektiv reaksiya vermək üçün lazımi işlər görülür. Müvafiq tənzimləmə orqanlarının yaradılması, qanunvericilik və qaydaların təkmilləşdirilməsi və inkişafı, nəzarətə pilləli yanaşmanın tətbiqi, habelə müxtəlif beynəlxalq layihələrdə iştirak və beynəlxalq əməkdaşlığın inkişafı mövcud infrastrukturun inkişafına əvəzsiz töhfə verir.

Radiasiya təhlükəsizliyinə nəzarət haqqında qanunvericilik üzərində işimizi davam etdiririk. Artıq Azərbaycan nüvə və radiasiya tullantılarının ölkəyə gətirilməsini qəti qadağan edən normativ akt və qaydaları qəbul edib. AEBA-nın köməyi ilə nüvə və radioaktiv materialların qeydiyyatı və nəzarəti ilə bağlı Azərbaycanın qanunları və digər qanunvericilik aktları beynəlxalq standartlara uyğunlaşdırılır.

Azərbaycan Nüvə Terrorizmi Aktlarına Qarşı Mübarizə üzrə Beynəlxalq Konvensiyaya və Nüvə Materialının Fiziki Mühafizəsi Konvensiyasına (NMFMK) qoşulmuş və bu Konvensiyaya Düzəlişi təsdiq etmişdir.

Azərbaycan nüvə təhlükəsizliyinin qorunmasına və daha da gücləndirilməsinə böyük əhəmiyyət verir. Xüsusilə, bölgədəki radikal ekstremizm və terrorizm təhlükəsi qarşısında və coğrafi vəziyyətimizə görə, ərazimizin qanunsuz nüvə ticarəti üçün tranzit marşrutu kimi istifadə edilməsinin qarşısının alınmasına böyük əhəmiyyət veririk.

Beynəlxalq tərəfdaşlarımızla sıx əməkdaşlıq şəraitində beynəlxalq standartlara uyğun möhkəm qanunvericilik bazası ilə hərtərəfli milli ixrac nəzarəti sistemini işləyib hazırlamışıq. Ancaq ərazimizin iyirmi faizinin Ermənistan tərəfindən işğalının davam etməsi səbəbindən sərhədlərimizin əhəmiyyətli bir hissəsi boyunca lazımi nəzarəti təmin edə bilmirik. Bu vəziyyət qanunsuz fəaliyyət, o cümlədən nüvə qaçaqmalçılığı və nüvə terrorizmi üçün əlverişli şərait yaradır.

**Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan beynəlxalq təşkilatlar və tərəfdaşlarımızla regionda və dünyada nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi və nüvə və radioaktiv materialların qanunsuz dövriyyəsi nəticəsində yaranan təhdidlərin azaldılması istiqamətində əməkdaşlığı davam etdirmək əzmindədir və bu məsələdə AEBA-nın əməkdaşlığına və dəstəyinə arxalanır. Dünyanın nüvə təhlükəsizliyinin təşviqində bu konfransın əhəmiyyətini vurğulayaraq, Azərbaycan "Nüvə Təhlükəsizliyi: səylərin davam etdirilməsi və gücləndirilməsi" üzrə Beynəlxalq Konfransın Nazirlər Bəyannaməsini dəstəkləyir.**

# Dünyanın üçdə biri Azərbaycanın seçki sistemini birbaşa izlədi - ölkənin mövqeyini möhkəmləndirən 9 fevral prosesləri...

**Azərbaycanda parlament seçkilərində 1314 nəfər namizəd iştirak edib. Namizədlərdən 246 nəfəri 19 siyasi partiyanın təmsilçisidir, 1057 nəfəri fərdi qaydada namizədliyini irəli sürüb, 11 nəfərin namizədliyi isə təşəbbüs qrupu tərəfindən irəli sürülüb. Namizədlərin 21 faizi qadınlar, 79 faizi isə kişilərdir.**

Seçki günü ərzində Azərbaycanda 125 dairə üzrə 5573 daimi seçki məntəqəsi fəaliyyət göstərib.

Seçkilərin gedişini 883 beynəlxalq və 77 790 yerli müşahidəçi izləyib. Yerli müşahidəçilərdən 35 152-i siyasi partiyaların müşahidəçiləridir. Beynəlxalq müşahidəçilər 58 ölkəni və 59 təşkilatı təmsil edirlər.

Xüsusilə diqqətçəkən müşahidəçilərin sayı və təmsil etdikləri ölkələrlə bağlıdır. 58 ölkənin Azərbaycanda keçirilən seçkiyə maraq göstərməsi olduqca ciddi göstəricidir. Çünki dünyanın digər ölkələrində keçirilən seçkilərin heç də hamısına bu şəkildə beynəlxalq diqqət olmur. Ən maraqlısı isə budur ki, seçkiləri müşahidə edən bəzi ölkələrin təmsilçiləri Azərbaycandakı seçki təcrübəsinin öyrənilməsini və öz ölkələrinə tətbiqini istədiklərini deyiblər.

Azərbaycanda keçirilən parlament seçkilərini izləyən vyetnamlı müşahidəçilərdən ibarət nümayəndə heyətinin sədri, Vyetnam-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Nghiem Vu Khai bildirib ki, biz Azərbaycanın seçki keçirmək təcrübəsini öyrənməliyik: "Burada olduğumuz dörd gün müddətində Azərbaycanda tam şəffaf seçki prosesinin şahidi olduq".

O, Qəbələ, Şəki və Bakıda seçkiqabağı prosesi izlədiklərini, müşahidə apardıqları 5 məntəqədə namizədlərlə bağlı bütün məlumatların yerləşdirildiyini, şəffaflığın təmin olunduğunu və bütün namizədlərə bərabər şəraitin yaradıldığını qeyd edib. Deyib ki, proses tam şəffaf şəkildə həyata keçirilib.

Səsvermə prosesində müasir texnologiyaların istifadə olunmasını yüksək qiymətləndirən müşahidəçi bildirib. "Eyni zamanda, biz seçki prosesində texnologiyaların tətbiqinin əyani şahidi olduq. Yəni istənilən xarici ölkədən Azərbaycanda keçirilən seçkiləri sərbəst şəkildə izləmək mümkündür. İnsanların barmaqlarına mürəkkəbin vurulması da bizim üçün yenilik idi. Bu, şəffaflığın tam təmin edilməsinin göstəricisidir. Olduğumuz məntəqədə insanların sərbəst şəkildə səs vermələrinin şahidi olduq, hər hansı pozuntu müşahidə etmədik. Seçicilərlə söhbətimdə onlar daha çox gənc namizədləri dəstəklədiklərini bildirdilər. Bu, müsbət məqamdır. İnanıram ki, yeni seçilən parlament daha güclü olacaq".




Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə edən ABŞ-dan olan müşahidə missiyasının üzvü, Yəhudi Respublikaçılar Alyansının təsisçisi Mitç Silberman isə deyib ki, bir neçə məntəqədə səsvermə prosesini müşahidə ediblər: "Məntəqələrdə seçkilərin qaydalara uyğun keçirildiyinin şahidi olduq. Müşahidələrim zamanı heç bir insident qeydə alınmadı".

Müşahidə missiyasının digər üzvü, San-Dieqo Universitetinin professoru Martin Kruminq bildirib ki, onlar Azərbaycanda azad seçkilər və demokratiya uğrunda mübarizəyə şahidlik ediblər. Onun sözlərinə görə, Azərbaycanda keçirilən seçki digər ölkələrə nümunə göstərilə bilər.

Digər amerikalı müşahidəçi, Buxara yəhudilərinin ABŞ və Kanada üzrə koordinatoru Rafael Nektal da müşahidələr zamanı qayda pozuntusunun aşkarlanmadığını vurğulayıb.

Böyük Britaniyadan olan müşahidəçi Peter Douglas Banks bildirib ki, həm seçki günündən bir gün qabaq, həm də seçki günü ölkənin bir neçə bölgəsində seçki məntəqələrində müşahidə aparıblar: "Müşahidə apardığımız Quba, Şamaxı, Gəncə, Qəbələ, Bakı və Sumqayıtdakı seçki dairələrində ümumi vəziyyəti qənaətbəxş hesab etmək olar. Biz beynəlxalq müşahidəçi statusunda olduğumuz üçün seçkinin gedişatına, seçicilərin seçiminə müdaxilə etmək imkanımız yoxdur. Amma kənardan seçicilərə hər hansı təzyiq edildiyinin, maneçilik törədildiyinin şahidi olmadıq".

Danimarkadan olan müşahidəçi Nikolas Milthers namizədlərin sayını və müstəqil şəxslərin namizəd kimi seçkidə iştirakını yüksək qiymətləndirdiyini deyib: "Biz seçki gününə qədər 20-dən çox namizədlə görüşdük və onları dinlədik. Hər məntəqədə 20-dən çox namizədin olması seçkidə yaradılan obyektiv şəraitin göstəricisidir".

Almaniyadan olan müşahidəçi Onur Oğuz Dəllal isə bütün seçkilərdə narazı tərəflərin, neqativlərin olmasının normal olduğunu qeyd edib.

Kifayət qədər ölkənin təmsilçisi olan müşahidəçilərin seçkiləri monitorinq edib, xoş təəssüratla ayrılmasının ölkəmizin beynəlxalq imicinə də müsbət təsiri var. Çünki buradan ayrılan müşahidəçilər hərəsi öz ölkəsinə gedəcək. Orada da gördükləri barədə danışacaqlar. Gələnlərin hamısı yaxşı postlarda çalışan adamlardır. Onların əhatə dairəsi də böyükdür.

**Eyni zamanda, müşahidəçilərin arasında çoxlu sayda parlamentari var. Onlar da gedib öz ölkələrinin parlamentində müşahidələrinin nəticəsini bölüşəcəklər. Bütün bunlar Azərbaycanın demokratik imicini daha da möhkəmləndirəcək. Bu amil həm də Azərbaycanla təmasların çoxalmasına səbəb olur. Bunun da nəticəsində ölkəmizin təbliği asanlaşır. Həm təbliğat, həm də ölkəmizin digər maraqları baxımından olduqca yaxşı nümunədir. Mütləq deyil ki, hamısı Azərbaycanı tərifləsin. Elə ölkəmizə göstərilən diqqət onların burada iştirakında özünü göstərir.**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Seçkilərlə Qarabağ sülh prosesinə iki təsir nümunəsi - Ermənistan üçün pozucu, Azərbaycan üçün sürətləndirici taktika...

**Azərbaycan daha bir mühüm seçkini arxada qoydu və ölkə artıq özünün yeni parlamentini formalaşdırır. Seçkilərə qədər belə iddialar səslənirdi ki, Azərbaycan bu mühüm tədbiri keçirdiyindən, proses Dağlıq Qarabağ münaqişəsinə də təsir edəcək və konfliktlə bağlı danışıqları arxa plana atacaq. Amma təcrübə göstərir ki, Ermənistandan fərqli olaraq, Azərbaycanda hansısa seçki Qarabağ məsələsinin gedişinə, xüsusən də danışıqlar prosesinə qətiyyən təsir etmir.**

Bunun ən bariz sübutu elə xarici işlər nazirlərinin son Cenevrə danışıqları oldu.

Xatırladaq ki, yanvarın 28-30-da Cenevrədə ATƏT-in Minsk Qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub. Özü də Cenevrə görüşü son illər ərzində tərəflər arasında ən intensiv müzakirələrin aparıldığı görüş olub. Tərəflər həmsədrlərin təqdim etdiyi gündəlik üzrə hərtərəfli müzakirələr apardılar. Bu sırada 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, həmçinin münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələlərini qeyd etmək lazımdır. Bu xüsusda, nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar. Digər tərəfdən məlumdur ki, Cenevrə görüşünə qədər Azərbaycanda parlament seçkilərinin keçiriləcəyi məlum idi. Çünki bu xüsusda qərar ötən ilin sonunda verilmişdi. Amma seçkilərə rəğmən, Azərbaycan Ermənistan tərəfi ilə intensiv bir görüş keçirdi və bunun davam etdirilməsi istiqamətində də qərar qəbul etdi.

Bütün bunlar bir daha onun sübutu sayılır ki, Azərbaycanda istənilən seçki və ya referendum Qarabağ münaqişəsi ilə bağlı müzakirələrə təsir etmir. Bundan əvvəl keçirilən belə tədbirlər fonunda da Azərbaycan Qarabağ danışıqlarını davam etdirib. Amma Ermənistana gəldikdə, vəziyyət tamam fərqlidir. Burada istənilən seçki dərhal Qarabağ məsələsi ilə bağlı danışıqların uzanmasına səbəb olur. Bunun sübutu kimi bu ölkədə 2018-ci ilin sonunda baş tutan parlament seçkilərini göstərmək olar. Məhz həmin seçkiləri əsas gətirən Ermənistan Qarabağ münaqişəsi ilə bağlı danışıqları, demək olar ki, dondurdu. Ermənistanda 9 dekabrda keçirilən növbədənkənar parlament seçkilərindən sonra da Paşinyan iqtidarının formalaşdırılması prosesinin getməsi əsas gətirilərək, ötən il ərzində də kofnliktin çözümü ilə bağlı heç bir addım atılmadı. Qarabağ məsələsi ilə bağlı danışıqlarda intensivlik 2019-cu ildə mümkün olmadı.

Əslində, cari ildə də Ermənistan referendum oyununu əsas gətirib Qarabağ danışıqlarda daha bir müddət üçün fasilə yaratmağı düşünür. Məlumdur ki, Nikol Paşinyan iqtidarı ölkədə konstitusiya dəyişikliklərinə getməyə hazırlaşır. İndi Ermənistan siyasi gündəmini birbaşa bu mövzu zəbt etdiyindən, Qarabağ məsələsi yenə arxa plana atılıb. Erməni mətbuatı yazır ki, artıq növbədənkənar keçirilən parlament iclasında "Milli Məclisin nizamnaməsi", "Referendum haqqında", "Konstitusiya məhkəməsi haqqında" konstitusiya qanunvericiliyində dəyişikliklər və əlavələr edilməsi, konstitusiyada dəyişikliklərə aparılması ilə bağlı qanun layihəsi müzakirə edilib. Konstitusiyada dəyişikliklərin əsas məqsədi artıq parlamentin saytında bu şəkildə yerləşdirilib:

"Konstitusiyanın 7-ci başlığı qüvvəyə minənədək təyin edilmiş konstitusiya məhkəməsinin sədri və üzvlərinin səlahiyyət müddəti dayandırılır".

Yeni bütün bu konstitusiya və qanunvericilik dəyişikliklərinin məqsədi Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyandan və fəaliyyətdə olan Konstitusiya Məhkəməsinin üzvlərindən yaxa qurtarmaqdır.

Ermənistanın "168.jam" nəşrində dərc olunan məqalədə qeyd olunub ki, bu məqsədə çatmaq üçün iqtidar hakimiyyətin qollarına arasında tarazlıq və qarşılıqlı təmkin prinsiplərini yerləyeksan etməyi hədəfləyərək, ayrıseçkilik qoymadan hər növ üsula əl atır: "Artıq bu dəyişikliklərə dair çoxsaylı dəyərləndirmələr aparılıb. Bununla da heç bir məhdudiyyəti olmayan hakimiyyətin ələ keçirilməsinin baş verəcəyi qeyd edilir. Qanuni ifadələrdən asılı olmayaraq, ciddi siyasi fəaliyyətlə üzləşmişik. Bu dəyişikliklər nəticəsində hakimiyyət iri addımlarla avtotarizmə doğru irəliləməkdədir. Bu, Paşinyanın fərdi hakimiyyət səlahiyyətlərinin bərqərar edilməsi istiqamətində atılan addımlarının bariz nümunəsidir ki, bu da Ermənistana olduqca baha başa gələ bilər. Çünki beynəlxalq ictimaiyyət Ermənistanla bağlı hesabat və dəyərləndirmələrini daha da sərtləşdirəcək. Bu baş verməzsə, həmin beynəlxalq birliyin başqa bir məqsəd naminə anti-demokratik prosesə göz yumduğunu göstərəcək. Ermənistan hakimiyyətindən hər hansı bir məsələ ilə bağlı güzəşt və ya qərar verilməsi məqsədini güdəcək. Bu, Ermənistan üçün əsl problemdir, əsas çağırışdır. Bu addım ilk növbədə parlament müxalifətinə olan çağırışdır. Nəticədə hakimiyyətə gəlincə atılan bu addımlarla gələcəkdəki digər hakimiyyətə faktiki əsas hazırlayır ki, keçmişə qayıtmaq və bu hakimiyyəti ələ keçirmək prosesinə hüquqi qiymət vermək mümkün olsun. Keçmişə qarşı mübarizə apararaq öz siyasi gündəliyini quran hakimiyyət üçün bəlkə də bu normal görünür. Ancaq dövlət və cəmiyyət üçün bu, normal hal deyil. Bu yolla keçmişə qayıtmaq, keçmişi təmizləmək üçün dövrə vurmaqla hər şey əzilir. Hətta bura Qarabağ münaqişəsi də daxildir. Aydındır ki, konstitusiya oyunu davam etdiyi müddətdə Qarabağ konflikti arxa plana atılacaq. Bununla da Azərbaycan razılaşmaq niyyətində deyil. Belə olan təqdirdə danışıqlarda fasilə yaransa, savaş ehtimalı ön plana çıxacaq". Bunu rus siyasi analitik Vladimir Yevseyev də istisna etmir. O bildirir ki, Azərbaycan Ermənistanda hansısa siyasi prosesə görə Qarabağ danışıqlarını təxirə salmağı düşünmür: "Azərbaycan yeni hərbi əməliyyat üçün əlverişli məqam axtarmağa paralel olaraq ATƏT-in Minsk Qrupunun himayəsi altında görüşlər keçirə bilər. Amma bunun üçün Ermənistanın da intensiv danışıqlara təşəbbüs göstərməsi vacibdir".

Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesinə, xüsusilə də bir neçə gün bundan öncə Cenevrədə baş tutmuş nazirlərin iki günlük görüşünə toxunarkən ekspert bildirib ki, Bakı nəticəsi olan danışıqlarda maraqlıdır. Yevyevin sözlərinə görə, bu fonda Cenevrədə görüş olduqca uzun müddət davam edib, çünki tərəflər bəzi humanitar layihələrin həyata keçirilməsi detallarını, onların formatlarını müzakirə edir:"Mən nizama salınmaya düşünülmüş proses təsəvvür etmirəm, tərəflər uzun müzakirələr edə bilər, lakin hazırkı anda nə Azərbaycan, nə də Ermənistan həll prosesində hər hansı bir şeydən imtina edəcək, yəni dəstəklədiyi prinsipi güzəştə getməyəcək, bu münaqişə halında, siyasi həll halında isə güzəştlər qaçılmazdır. Amma danışıqlar olmasa, savaş mümkündür. Ermənistanda baş verənlər, xüsusən də konstitusiya dəyişiklikləri danışıqları arxa plana atır. Elə Bakının da qəbul etmədiyi budur".

Digər tərəfdən, Ermənistan təkcə öz daxilində yox, həm də zəbt edilmiş ərazilərdə "seçki" şouları təşkil etməklə danışıqları yubandırmağa daim xüsusi cəhd edir. Xatırladaq ki, qondarma Qarabağ rejimində yeni "prezident" və "parlament" seçkisi martın 31-də keçiriləcək. Separatçı rejimdə "prezident seçkisi" uğrunda mübarizədə Vitali Balasanyan, Masis Mailyan, Araik Arutyunyan, Aşot Qulyan, David İşxanyan və digərləri iştirak edəcəklərini açıqlayıb. "Seçki"də əsas mübarizənin hazırkı Ermənistan hakimiyyəti ilə Qarabağ klanının prezident postuna nəzarəti uğrunda aparılacağı vurğulanır. Elə bu fonda İrəvan bu məsələni də əsas gətirib Qarabağ danışıqlarını arxa plana atmağa can atır. Düzdür, Azərbaycan ərazilərini işğal edən Ermənistan ilk dəfə deyil ki, bu ərazilərdə "seçkilər" və ya "referendum" adlandırdığı müxtəlif tamaşalar keçirir. Amma onların nəticələrinə görə beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək, qanunsuz rejimin, eləcə də onun tərəfindən keçirilən hər hansı bir "seçkilər"in tanınmaması ilə bağlı prinsipial mövqeyini daim bəyan edir. Azərbaycanın işğal olunmuş ərazilərində "seçkilər"in izlənməsi üçün vəsait ayıran Ermənistan hökuməti bir daha ölkəmizin Dağlıq Qarabağ bölgəsinə və ona bitişik inzibati rayonlarına nəzarəti həyata keçirdiyini etiraf etmiş olur. O da faktdır ki, Azərbaycanın işğal olunmuş ərazilərində "seçkilər"i demokratiyanın göstəricisi kimi təqdim etmək cəhdləri heç bir məntiqə sığmır.

Dünya birliyi azərbaycanlı əhalinin kütləvi qırğınlarını, etnik təmizlənməsini və yüz minlərlə məcburi köçkünün təməl hüquqlarının pozulmasını pisləyir. Ermənistan hökuməti Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinə "demokratiya ixracı"nın yalançı görüntüsünü yaratmaqla, həm də Qarabağ münaqişəsinin həlli üçün danışıqlar prosesinin irəliləməsinə mane yaradır. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin qanunsuz işğalı əsasında yaranmış status-kvo vəziyyətinin qorunub saxlanmasına xidmət etməyə salışır. Amma Bakı artıq düşmənin belə oyunlarına icazə vermək niyyətində deyil və hansısa seçki məsələsi ilə bağlı danışıqların təxirə salınması savaşı daha da yaxınlaşdırır.

***Nahid SALAYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Deputatlığa 1300-dən çox namizədin cəmi 230-u partiya üzvü kimi - ölkədə partiyalaşmanın yeni mərhələsinə ictimai tələbat yetişib

**Məlum olduğu kimi, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirilib. Bu, ölkədə keçirilən 6-cı çağırış parlament seçkiləri idi. Ümumilikdə, son parlament seçkilərində 1314 nəfər namizəd iştirak edib. Namizədlərdən 246 nəfəri 19 siyasi partiyanın təmsilçisi olub.**

*"Nə qədər ki, bu baş verməyib, siyasi təşkilatlara cəmiyyətdə inam aşağı olacaq"*

## **Ramil Hüseynov:** *"Görünən odur ki, Azərbaycanda partiya institutu yenilənməlidir"*



1057 nəfəri fərdi qaydada namizədliyini irəli sürüb, 11 nəfərin namizədliyi isə təşəbbüs qrupu tərəfindən irəli sürülüb. Seçki günü ərzində Azərbaycanda 125 dairə üzrə 5426 daimi seçki məntəqəsi fəaliyyət göstərib.

Qeyd edək ki, parlament seçkilərinə qatılmaq üçün, ümumilikdə, 2431 nəfər müraciət etmişdi. Müraciət edənlərin bəzilərinin namizədliyi qeydə alınmadı. Çünki qeydiyyat üçün lazım olan səsi toplaya bilməyiblər. Digərləri isə seçkiyədək namizədliyini geri götürüb. Bütün hallarda, seçkidə iştirak edən 1314 nəfər namizəddən 246 nəfərin siyasi partiya üzvi kimi prosesə qatılması çox kiçik göstəricidir. Bu, cəmiyyətin partiyalara etimad göstərməməsinin nəticəsidir. Belə olmasaydı, o zaman iddialı olanlar daha çox partiya üzvi kimi namizədliyini irəli sürəcəkdilər. Məlum olur ki, parlamentə iddialı olan şəxslər partiya üzvü kimi namizədliyini verməkdənsə, bitərəf olaraq seçkiyə qatılmağı daha üstün tuturlar. Çünki mövcud partiyaların əksəriyyətinə cəmiyyətdə etimad yoxdur. Bütün bunlardan çıxış edərək hesab etmək olarmı ki, ölkədə partiyalaşmanın yeni mərhələsinə ictimai tələbat yetişib?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun fikrincə, son parlament seçkilərini nəzərə alsaq, ölkədə partiyalaşmanın yeni mərhələsinə zərurət yaranıb. O bunu bir sıra amillərlə əlaqələndirdi: "Görünən odur ki, Azərbaycanda partiya institutu yenilənməlidir. Mən özüm uzun illər partiyada təmsil olunmuşam. Artıq müstəqil olaraq siyasi fəaliyyətlə məşğulam. Ölkədəki siyasi arenaya kifayət qədər bələdəm. Həqiqətən də partiyalara cəmiyyətin etimadı çox aşağı səviyyədədir. Ölkədə 50-dən çox partiya qeydiyyatdan keçsə də, onların əksəriyyətinin sosial bazası, əhəmiyyətli sayda tərəfdarı yoxdur. Nəinki əhəmiyyətli sayda, heç ümumiyyətlə, tərəfdarları belə yoxdur. Bir çox partiyanın nizamnamə və məramnamələri oxşardır, bir-birini təkrarlayır. Mövcud partiyalar gəncləri özünə cəlb edə bilmirlər. Bütövlükdə, ideoloji baxımdan partiyalar cəmiyyət üçün cəlbedici deyil.

Ona görə də bir çoxu bitərəf olaraq seçkiyə qatılmağı daha üstün hesab edir. Belə olmasaydı, o zaman partiya üzvü kimi namizədlərin sayı indikindən daha çox olardı. Azərbaycanda partiyalarla bağlı mövcud mənzərə çox pis təsir bağışlayır. Bunun nəticəsidir ki, partiya adı gələndə insanlar bunu ya ikrah hissi ilə qarşılayır, ya da lağ obyektinə çevirirlər. O üzdən, ölkədə partiyalaşmanın yeni mərhələsinə ictimai tələbat var. Nə qədər ki, ölkədəki partiya institutu yenilənməyib, siyasi təşkilatlara cəmiyyətdə inam aşağı olacaq".

***Vidadi ORDAHALLI***

# AŞPA 9 fevral seçkisi barədə yekun bəyanatı niyə aprelə saxladı...

**Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycanda keçirilən parlament seçkilərinin nəticələri barədə hesabatı 2020-ci ilin aprel ayında baş tutacaq plenar iclasda müzakirə edəcək.**




## **Elşən Həsənov:** *"Çalışırlar ki, həmin zamana kimi münasibətlər durulsun və yaxşı məcraya düşsün"*

Bu barədə AŞPA-nın müşahidə missiyasının üzvü, AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Ştefan Şennak bildirib. Onun sözlərinə görə, hesabat hazırlamaq üçün seçkidən sonra daha iki dəfə Azərbaycana səfər etməyi planlaşdırır. Ş.Şennak seçki günü bunları da deyib: "Səsvermə prosesi əvvəlki seçkilərdə olduğu kimi, öz axarı ilə davam edir. Hələ ki, iki seçki məntəqəsində olmuşam. Ümumilikdə seçki prosesi, seçici fəallığı barədə danışmaq hələ tezdir. Mətbuat konfransı olacaq, müşahidələrimizi sizinlə bölüşəcəyik".

Qeyd edək ki, fevralın 10-da AŞPA nümayəndə heyətinin rəhbərliyi söz verdiyi mətbuat konfransını keçirib. AŞPA müşahidə missiyasının rəhbəri Frank Şvabe deyib ki, seçkilərə hazırlıq prosesini qiymətləndiriblər: "Öncə Azərbaycan hökumətinə seçkiləri izləmək üçün bizi dəvət etdiyinə görə təşəkkür edirik. Seçkilərə hazırlıq prosesində müəyyən irəliləyişlərə baxmayaraq, səslərin hesablanmasında yol verilən pozuntular var".

O vurğulayıb ki, səslərin hesablanması ilə bağlı prosesdə bəzi qanun pozuntuları müşahidə edilib: "Mən 30 Saylı Seçki Dairəsində 10 saylı məntəqədə bunu müşahidə etmişəm. Həmkarlarım da bəzi dairələrdə eyni halla üzləşiblər. Avropa Məhkəməsinin qərarlarının təmin olunmaması İlqar Məmmədov və digərlərinin seçkidə iştirakının qarşısını almışdı".

Çox maraqlıdır ki, AŞPA müşahidə missiyasının rəhbərinin ilkin dəyərləndirməsində yalnız neqativliklər nəzərə çarpır. Bu baxımdan da maraqlıdır, AŞPA niyə seçkilərlə bağlı müşahidələrinin nəticəsini dərhal deyil, məhz apreldə elan etməyə hazırlaşır?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hazırda AŞPA ilə Azərbaycan hakimiyyəti arasındakı münasibətlər gərgindir: "Mən deyərdim ki, hətta ən kritik dönəmini yaşayır. Vəziyyət o həddə çatıb ki, Azərbaycan Prezidenti AŞPA-nı lazımsız qurum adlandırıb. Bütün bunları doğuran səbəblər var. Çünki Avropanın bəzi strukturları və xüsusilə də AŞPA Azərbaycana qarşı daim qərəzli münasibət sergiləyir. Qurum Azərbaycanda olan siyasi məhbuslarla bağlı qəbul etdiyi qətnamədə qərəzli olduğu üçün Azərbaycan rəhbərlik səviyyəsində onlara etiraz edib. Prezident deyib ki, biz qurumun qətnamələrini icra etməyəcəyik. Təbii ki, belə olan halda, AŞPA missiyasının mövqe ortaya qoyması münasibətləri daha da kəskinləşdirə bilər. Fikir verirsinizsə, AŞPA nümayəndələrinin ilkin dəyərləndirməsində yalnız neqativ hallarla bağlı danışılıb. Bir növ, anons veriblər ki, onların yekun rəyi mənfi ola bilər. Bu səbəbdən də anonsu verib, bir qədər manevr etmək istəyirlər. Çalışırlar ki, həmin zamana kimi münasibətlər durulsun və yaxşı məcraya düşsün.

Bilirsiniz ki, Avropa qurumlarının əksəriyyəti verəcəkləri bəyanatların zamanını və məğzini öz maraqlarına uyğun şəkildə edirlər. Bu məsələdə də həmin manevri etmək istəyirlər. Mənə elə gəlir ki, ölkə başçısının AŞPA ilə bağlı söylədiyi fikirlər onlar üçün ciddi xəbərdarlıq olmalıdır. Nəticə çıxarıb, normal münasibətlər qurmalıdırlar. Əks halda, yollar ayrıla bilər. Mənə elə gəlir ki, seçkinin nəticələrinə dərhal qiymət verməmək üçün onlara mane olan ciddi bir amil yox idi".

***Məhəmmədəli QƏRİBLİ***

# Xarici mediada 9 fevral seçkisi ilə bağlı yazılar say üstünlüyü ilə diqqət çəkdi

**Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan 9 fevral - parlament seçkiləri yerli media ilə yanaşı, beynəlxalq medianın diqqət mərkəzində oldu. Bir çox xarici KİV nümayəndələri ölkəmizdə seçki prosesini izləyərək geniş şəkildə işıqlandırdılar.**



## *Vüqar Rəhimzadə: "Xarici media Azərbaycanın siyasi proseslərdə nə qədər aktiv olduğunu dünya ictimaiyyətinə çatdırdı"*

Rusiyanın TASS, RİA "Novosti" agentlikləri, "Arqumentı i faktı" qəzeti kimi çox nüfuzlu media orqanları seçki prosesinə dair məqalələr yaydılar.

Məqalələrdə, həmçinin, deputatlığa namizədlər qarşısında qoyulan tələblərdən də bəhs edilir. Qeyd edilir ki, ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Milli Məclisə deputat seçilə bilməzlər.

Türkiyə mediası da ölkəmizdə parlament seçkilərini işıqlandıran əcnəbi KİV sırasında olub. Türkiyənin nüfuzlu "Hürriyyət" qəzetində "Azərbaycanda xalq seçki qutusu qarşısında" sərlövhəli məqalə dərc edilib. Məqalədə vurğulanır ki, seçkidə 125 yer uğrunda 1314 deputatlığa namizəd mübarizə aparıb. Azərbaycanda seçkini 78 minə yaxın yerli müşahidəçi izləyib, bundan başqa, 883 beynəlxalq müşahidəçi parlament seçkilərini izləmək üçün qeydiyyatdan keçib. Onu da qeyd edək ki, Prezident İlham Əliyevin ailə üzvləri ilə birgə səs verməsi də Türkiyə mediasının diqqətində olub.

Bir sözlə, fevralın 9-da Azərbaycanda keçirilən parlament seçkiləri aparıcı dünya KİV-nin diqqət mərkəzində olub.

"İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 9 fevral tarixində seçkilər uğurlu şəkildə baş tutdu: "Nəzərə almaq lazımdır ki, Azərbaycan mediası ictimai-siyasi prosesləri daim izləyir, prosesləri nəzarətdə saxlayır. Azərbaycan mediası ilə yanaşı, beynəlxalq media da 9 fevral tarixində baş tutan seçki prosesinin yüksək səviyyədə həyata keçdiyini dünya ictimaiyyətinə çatdırdı. Azərbaycan mətbuatı ilə yanaşı, dünya mediası da ölkəmizin tək iqtisadi inkişafını deyil, eyni zamanda, Azərbaycanın siyasi proseslərdə nə qədər aktiv olduğunu dünya ictimaiyyətinə çatdırdı".

***Günel CƏLİLOVA***

# Sosial şəbəkələrdə ən çox səs-küy salanlar - seçkidə ən az səs toplayanlar...

**Fevralın 9-da Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri hələ başa çatmamışdan və seçkinin nəticələri elan edilməmişdən bir neçə saat əvvəl bir sıra deputatlığa namizədlər sosial şəbəkələrdə, xüsusən də "Facebook"da "səsimi oğurladılar", "seçicilər mənə daha çox səs vermişdi", "saxtalaşdırma baş verdi" kimi bəyanatlarla çıxış etməyə başladılar. Müşahidələr isə onların iddialarının əsassız olduğunu ortaya qoydu.**

*"Qalib gələn rəqibi təbrik etməyin özü bir siyasi mədəniyyətdir, amma bizdə təəssüf ki, bu mədəniyyət hələ tam formalaşmayıb"*

## *Bəhruz Quliyev: "...rəqibinin daha güclü olduğunu etiraf etmək istəmirlər"*

Belə rəylər səsləndirildi ki, sosial şəbəkələrdə ən çox səs-küy salanlar seçicilər tərəfindən az səs qazananlardır. Hətta onların arasında 15-20, 30-50, 100 və 150 səs alanlar da var. Seçicinin yekdil səsini qazana bilməyən bəzi deputatlığa namizədlərin belə hay-küy salmaları ekspertlər tərəfindən normal qəbul edilmir. Onlar bildirirlər ki, səsvermə başa çatmadan və seçkinin nəticələri elan olunmadan bəzi namizədlərin özlərini bu cür bəyanatlarla sığortalamasının özü anormal haldır.

"Səs" qəzetinin və eyniadlı informasiya agentliyinin rəhbəri Bəhruz Quliyev hesab edir ki, bəzi namizədlərin sosial şəbəkələrdə bu cür çıxış etməsi təbiidir. Onun sözlərinə görə, hər namizəd böyük siyasi mədəniyyətə malik olmadığı üçün mövcud hallar baş verir. Azərbaycanda parlament seçkilərinin şəffaf, demokratik və ədalətli keçirildiyini deyən B.Quliyevin bildirdiyinə görə, bu faktı beynəlxalq qurumların keçirdiyi exit-pollar da təsdiqləyib: "Əvvəlcə onu deyim ki, bu seçki zamanı Azərbaycan xalqı bir daha öz iradəsini ortaya qoydu və ölkəmizdə demokratik şəkildə parlament seçkisinin keçirilməsinə nail oldu. Bu, xalqın qələbəsidir və hesab edirəm ki, Azərbaycan xalqı indi də, keçən dövrlərdə də öz taleyini özü həll edib. Azərbaycan xalqı müdrik xalqdır və lazım gələndə öz qərarını verir və taleyini özü həll edə bilir. Digər tərəfdən də seçkini izləyən beynəlxalq müşahidəçilər, exit-poll keçirən müxtəlif təşkilatlar Azərbaycanda seçkinin demokratik standartlarla keçirildiyini bəyan etdilər. Beynəlxalq təşkilatların rəyi onu göstərdi ki, Azərbaycanda şəffaf, ədalətli seçki keçirildi, vətəndaşlar istədikləri namizədə səs verib seçdilər. Narazılıqlara gəldikdə isə, namizədlərin seçkinin nəticələrindən narazı qalması təbiidir. Seçkiyə qatılan namizədlərin sayının çoxluğu seçkiyə nə qədər marağın olduğunu göstərir. Bir yerə qarşı təxminən 10 nəfər mübarizə aparırdı.



Namizədlər arasından 125 nəfər seçildikdən sonra geridə qalan təxminən min nəfər namizədin isə narazı qalması təbiidir. Ümumiyyətlə, seçkidə, hansısa bir rəqabətdə uduzan şəxslər özlərindən güclü rəqibin əlini sıxıb onu təbrik etmək və rəqibinin daha güclü olduğunu etiraf etmək istəmirlər. Qalib gələn rəqibi təbrik etməyin özü bir siyasi mədəniyyətdir, amma bizdə təəssüf ki, bu mədəniyyət hələ tam formalaşmayıb. Seçkidə uduzan, məğlub olan şəxs ya qarşı tərəfi ittiham edir, ya da başqa xoşagəlməz fikirlər səsləndirir. Bunu təbii də qəbul etmək lazımdır. Əsl siyasət adamları, siyasi prosesləri dərindən analiz edib qiymətləndirməyi bacaran insanlar yaxşı bilirlər ki, hər bu cür hal hansısa namizədin narazılığına səbəb ola bilər. Təcrübədə bu var. Ona görə də namizədlərin bu şəkildə narazılıqları gözlənilən idi".

**B.Quliyev qeyd etdi ki, seçilməyən namizədlərin narazılıqlarına baxmayaraq, Azərbaycan dövləti modern şəkildə, sivil və demokratik standartlara cavab verən seçki təşkil etdi, MSK da seçkinin keçirilməsinə məsul olan bir qurum kimi bu prosesi uğurla təmin etdi.**

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dünya mediasının Qarabağ yazılarının Ermənistanda rezonansı - "informasiya siyasətində Azərbaycandan geri qalırıq"

## *Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq diqqətin artması Ermənistanda yeni təşvişə səbəb oldu*

**Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri də bu konfliktlə ilgili həqiqətlərin mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu xüsusda dünyanın müxtəlif media orqanlarında Qarabağ həqiqətləri ilə bağlı materialların verilməsi də diqqət mərkəzindədir.**

Ümumiyyətlə, son dövrlərdə dünya mediasında Qarabağ məsələsinə daha çox diqqət yetirilir və bu da erməni tərəfində ciddi təşviş yaradır. Düşmən ölkədə hesab olunur ki, bu hal Azərbaycanın Qarabağ münaqişəsi ilə bağlı uğurlu ifnormasiya siyasətinin mühüm tərkib hissələrindən birinə çevrilib. Bu xüsusda erməni ekspert Marina Qriqoryan bildirir ki, Ermənistan, Azərbaycandan fərqli olaraq, Qarabağ məsələsində lazımi informasiya siyasətinə malik olmayıb: "Bildirməliyik ki, Ermənistanda məqsədlərimizə dövlət səviyyəsində nail olmaq istəyimizlə bağlı nə siyasətimiz, nə də metodlarımız var". Məhz bu vəziyyətdə Qarabağ məsələsinə dair beynəlxalq mediada gedən yazılar Ermənistanda dərhal böyük ajiotaj yaradır. Belə bir vaxtda İtaliyanın "Il Caff? Geopolitico" qəzetində Qarabağ münaqişəsinə dair maraqlı yazı dərc olunub. Burada Dağlıq Qarabağ münaqişəsinin kökləri, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi tarixi, sovetlər dönəmində Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzündən bəhs olunur. Həmçinin işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizlənmə siyasətinin həyata keçirilməsindən, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən və işğal edilmiş ərazilərdə Azərbaycanın bütün tarixi abidələrinin dağıdılmasından, hərbi əməliyyatlar vaxtı Ermənistan ordusunun beynəlxalq humanitar hüququ ciddi şəkildə pozmasından bəhs edilir.

İşğal olunmuş ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimlə bağlı qeyd edilir ki, bu, əslində dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistanın özü tərəfindən belə tanınmayıb. Yəni Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüzü ört-basdır etmək üçün yaratdığı marionet bir rejimdir. Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə də vurğulayır ki, münaqişəyə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda mühüm nəticələr əldə edib, regionda inkişaf, əməkdaşlıq və rifaha töhfə verən əhəmiyyətli strateji nəqliyyat və enerji layihələri həyata keçirib: "Ermənistan isə qonşularına qarşı düşmənçilik siyasəti və Azərbaycana qarşı hərbi təcavüzə görə bütün bu strateji layihələrdən kənarda qalıb. Bu ölkə yoxsulluq və xaricdə normal həyat axtarışı səbəbindən vətəndaşlarının kütləvi şəkildə ölkəni tərk etməsi ilə üzləşib. Ermənistanda ağır sosial-iqtisadi vəziyyətlə əlaqədar kəskin etirazların nəticəsində hakimiyyətə gələn ölkənin yeni siyasi rəhbərliyindən münaqişə ilə bağlı əvvəlki hökumətdən fərqli olaraq müsbət davranış gözlənilsə də, bu gözləntilər özünü doğrultmayıb. Üstəlik, Ermənistanın hazırkı rəhbərliyi münaqişə ilə bağlı sülh prosesinə xələl gətirən və beynəlxalq birliyin böyük təəccübünə səbəb olan bir sıra ziddiyyətli açıqlamalar verdi. Ermənistanda ciddi sosial-iqtisadi problemlərin həlli bu ölkənin hakimiyyətinin münaqişə ilə bağlı Azərbaycanla razılaşma əldə etməsindən asılıdır, bunun üçün isə Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması zəruridir, çünki həmin ərazilərdə işğalçı qoşunların mövcudluğu sülh üçün əsas maneədir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılmadan, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyü bərpa olunmadan və bölgədə münaqişədən əvvəlki demoqrafik vəziyyət təmin olunmadan, yəni azərbaycanlı qaçqın və məcburi köçkünlər, Dağlıq Qarabağ da daxil olmaqla, öz ərazilərinə qayıtmadan münaqişəni həll etmək mümkün deyil. Bu şərtlər beynəlxalq hüquqa, Helsinki Yekun Aktına və münaqişə ilə bağlı beynəlxalq təşkilatların çoxsaylı sənədlərinə, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğundur".

Fransanın "village-justice.com" saytında da Qarabağ münaqişəsinə dair maraqlı məqamlara toxunulur. Burada yayımlanan məqalədə Dağlıq Qarabağ münaqişəsindən bəhs edilərək, münaqişə nəticəsində 30 mindən çox insanın həlak olduğu bildirilir. Qeyd edilir ki, münaqişə nəticəsində 1 milyon azərbaycanlı doğma torpaqlarından didərgin düşüb. Qondarma "Dağlıq Qarabağ respublikası"nın heç bir ölkə, eləcə də Fransa tərəfindən tanınmadığı diqqətə çatdırılaraq qeyd edilib ki, erməni məsələsinin populyar olmasından istifadə edilərək qardaşlaşma təşəbbüsləri yaranıb və Fransanın bir çox kommunaları ilə Azərbaycanın işğal altında olan ərazisinin yerli kollektivləri arasında qanunsuz qardaşlaşma xartiyaları imzalanıb. Vurğulanır ki, prezident Emmanuel Makron hələ 2019-cu ildə Fransa Erməniləri Təşkilatının Koordinasiya Şurasının illik şam yeməyində xatırladıb ki, Fransa da digər dövlətlər kimi qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır və Dağlıq Qarabağda olan kommunalarla fransız yerli kollektivləri arasında imzalanan xartiyalar heç bir hüquqi qüvvəyə malik ola bilməz. Bildirilir ki, məhz buna görə də fransız bələdiyyələri və Dağlıq Qarabağ kommunaları arasında imzalanan xartiyalar Fransa məhkəmələri tərəfindən ləğv edilib. Məhkəmələr bu qanunsuz xartiyaları ləğv edərkən vurğulayıblar ki, ölkədə merlər Fransanın tanımadığı, tanınması beynəlxalq münaqişə yarada biləcək ərazi vahidinin yerli kollektivi ilə münasibətlər qurmağa razılaşıb. Belə xartiyalar Fransanın beynəlxalq öhdəlikləri bilinmədən imzalanıb və Fransanın münaqişə ilə bağlı neytral öhdəlik götürdüyü xatırladılıb. Məqalədə imzalanan qanunsuz xartiyaların Konstitusiyanın 5, 14, 20-ci və 52-dən 55-dək olan maddələrinə, eləcə də yerli kollektivlərə dair ümumi məcəllənin L1115-1 maddəsinə zidd olduğu vurğulanır.

Fransanın "politiquematin" portalında da bildirir ki, Qarabağ münaqişəsinin həllini tezliklə tapması Avropanın da marağına uyğundur. "Bildilir ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması Qafqazda sabitliyi təhdid altına atır. Meksikanın nüfuzlu "El Sol de Mexico" qəzetində də Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonun işğal olunduğu, həmin torpaqlardan bir milyondan çox azərbaycanlının etnik təmizləməyə məruz qaldığı bildirilir. Bu vəziyyətə dünya ictimaiyyətinin biganə qalmadığı, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin qəbul olunduğu oxucuların diqqətinə çatdırılır. Qəzet Xocalı soyqırımının müasir tarixin ən faciəvi və dəhşətli səhifələrindən biri olduğunu qeyd edərək, silahsız əhalinin yalnız azərbaycanlı olduğuna görə qəddarcasına qətlə yetirildiyini oxucularının diqqətinə çatdırır. ABŞ-ın nüfuzlu "Jamestown Foundation" nəşri Ermənistanın siyasəti üzündən Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir irəliləyiş olmadığını, Ermənistanın təcavüzkar və status-kvonu saxlamaq siyasətini davam etdirdyini bildirir. Vurğulanır ki, bu hal regionda savaş təhdidi yaradır və belə vəziyyət Qərbin də maraqlarına cavab vermir. Avropanın nüfuzlu "euractiv" xəbər portalı isə yazır ki, Qarabağ münaqişəsinin həlli üçün hər hansı ciddi addım atılmır, əksinə, dünya Ermənistanın destruktiv siyasətinə şahidlik edir: "Danışıqlar prosesinin artıq təsis olunmuş formatının mövcudluğuna baxmayaraq, Ermənistan tərəfi bu formatı dəyişməyə cəhd etdi. Ermənistan və Azərbaycan bu münaqişənin tərəfləridir, ATƏT-in Minsk Qrupunun həmsədrləri vasitəçilərdir. Daha sonra Ermənistan tərəfi çox yüksək səviyyədə "yeni ərazilər, yeni müharibələr" və "bir santimetr belə ərazinin qaytarılmayacağı" kimi fikirlər səsləndirdi. Nəhayət, Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində "Dağlıq Qarabağ Ermənistandır" dedi. Bu, suveren bir dövlətin ərazisinin digər ölkənin rəhbəri səviyyəsində açıq şəkildə ilhaq edilməsi deməkdir. Bu tamamilə qəbuledilməzdir. Bu cür yanaşma, nəinki danışıqlara zərbə vurur, bütövlükdə danışıqlar prosesini dağıdır".

Bütün bunlar, sadəcə, son bir ay ərzində dünya mediasında yer alan məlumatlardır. Aydındır ki, bunlar Ermənistanın təcavüz siyasətinin ifşa olunmasında da önəmli rola malikdir. "Geopragma" araşdırma mərkəzinin vitse-prezidenti Patrisiya Lalonde bunları vacib sayır. O vurğulayır ki, çox mühüm geosiyasi məkanda, daim təlatümlü olan bir regionda yerləşən Azərbaycan üçün Qarabağ münaqişəsinin həlli çox önəmlidir. Patrisiya Lalonde qeyd edib ki, Azərbaycan "dondurulmuş" adlandırılan Dağlıq Qarabağ münaqişəsinə məruz qalıb. Ümid edirik ki, bu münaqişə tezliklə həllini tapacaq. Həmin münaqişə regionda hər an alovlana biləcək bir təhlükədir: "Bu səbəbdən dünyanın Qarabağ məsələsinin həllində vacib addımlar atması, daim bu mövzunu diqqət mərkəzində saxlaması olduqca önəmlidir. Münaqişənin alovlanması bütün regiona, hətta Avropaya yaxşı heç nə vəd etmir. Elə buna görə də məsələnin dinc həlli üçün real addımlar atılmalıdır".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan 5 aprel referendumu ilə sülh danışıqlarını növbəti dəfə uzatmaq mexanizmini işə saldı

**Son günlər Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Cenevrədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə keçirdikləri görüşün nəticələri hər iki ölkədə geniş müzakirə olunmaqdadır.**

*”Qondarma Qarabağ rejimində seçkilər, ardınca ermənilərin yeni referendum oyunları danışıqlarda fasilə yaradacaqsa...”*

Üstəlik, Ermənistanın Baş naziri Nikol Paşinyanın indiyədək aparılmış danışıqların detalları barədə açıqlama verməsi və xalqı sülhə hazırlamaq əvəzinə, "bir qarış torpağın qaytarılmayacağı" barədə dedikləri vəziyyəti daha da gərginləşdirir. Məsələ ondadır ki, son günlər Paşinyanın səsləndirdiyi sərsəm bəyanatlar nəinki münaqişənin sülh yolu ilə həllinə kömək etmir, hətta yeni müharibə təhlükəsi yaradır.

O da məlumdur ki, aprelin 5-də Ermənistanda referendum keçiriləcək. Ermənistan parlamenti Konstitusiya Məhkəməsinin yeni tərkibini müəyyən etmək üçün nəzərdə tutulan referendum barədə qanun layihəsini qəbul edib. Təklif olunan dəyişikliklər Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin 2015-ci ildə Konstitusiya islahatlarından əvvəl müəyyənləşdirilən səlahiyyətlərinin dayandırılması ilə əlaqədardır. Adətən, Ermənistan hakimiyyəti hər dəfə ölkədə keçirilən seçkilərdən bir bəhanə kimi istifadə edərək Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı sülh danışıqlarını uzadır. Ermənistanda hansı qüvvələrin hakimiyyətdə olmasından asılı olmayaraq, bu pozucu taktikadan istifadə edilib. Sonuncu dəfə 2018-ci ildə ölkədəki hakimiyyət dəyişikliklərini bəhanə edərək bir ilə qədər danışıqları yubatdılar. İndi də referendum məsələsini ortaya atıb danışıqları yubadırlar. Beləcə, hər dəfə qarşı tərəf öz "ənənəvi" taktikasını işə salır. Müşahidələr göstərir ki, bu dəfə də sülh danışıqları prosesi Ermənistan tərəfindən yubadılacaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistan hakimiyyəti məqsədyönlü şəkildə danışıqları uzadır: "Ermənistan daim danışıqların intensiv getdiyi bir ərəfədə müəyyən bir bəhanə ilə prosesdən uzaqlaşmağı hədəfləyib. Məhz Cenevrədə başladılan danışıqlar mərhələsində onların bu referendum oyunları yenidən danışıqlara zərbə vura bilər. Hesab edirəm ki, Ermənistan daxilində bu siyasi gərginliklər, bütövlükdə, danışıqlara mane olmamalıdır. Çünki yenilənmiş "Madrid prinsipləri" üzrə davam edəcək danışıqlarda irəliləyişlər olmasa, vəziyyət dəyişəcək. Azərbaycan tərəfi mümkün digər variantlara əl ata bilər. Qondarma Qarabağ rejimində seçkilər, ardınca ermənilərin yeni referendum oyunları danışıqlarda fasilə yaradacaqsa, bu, növbəti bir ilin itirilməsinə gətirib çıxaracaq. Hesab edirəm ki, Azərbaycan tərəfi Minsk Qrupunun həmsədrlərinin diqqətinə bu məsələni çatdırmalı və danışıqlarda irəliləyişə gətirə biləcək bir mərhələ açmalıdır. Ermənistan çalışacaq ki, bu danışıqlar mərhələsini də sabotaj etsin. Ancaq Azərbaycanın hazırkı diplomatiyası və prinsipial siyasəti vəziyyəti müsbətə doğru dəyişə bilər".

*Məhəmməd Əsədullazadə: ”Ermənistan daim danışıqların intensiv getdiyi bir ərəfədə müəyyən bir bəhanə ilə prosesdən uzaqlaşmağı hədəfləyib”*




***Vidadi ORDAHALLI***

# Ermənistan vətəndaş cəmiyyəti institutları antikonstitusion islahata qarşı - Avropa strukturları hələ susur...

**Paşinyan hakimiyyəti öz siyasi rəqiblərini sıradan çıxarmaq üçün bütün vasitələrdən istifadə edir. Belə total hücumlar yalnız onlarla müxalif olan fərdlərə deyil, eyni zamanda, bütöv bir struktura, hətta həmin ölkənin konstitusion dayaqları sayılan təsisatlara qarşı aparılır.**



İndi də hədəf kimi ölkənin Konstitusiya Məhkəməsi seçilib. Qurumun sədri Paşinyana tabe olmur, daha doğrusu, onun sifarişlərini icra etmir. Buna görə də istənilən vasitədən istifadə edilir ki, qurum ölkə rəhbərliyinə ram olunsun. Parlamentdə qurumun ləğvi ilə bağlı səylər səmərə vermədi. Yeganə çıxış yolunu Konstitusiyanın dəyişdirilməsində görürlər. Bunun da yolu ümumxalq referendumundan keçir. Ermənistan parlamenti belə bir qərar qəbul edib. Ölkənin vətəndaş sektoru bu qərara qarşı səfərbər edilib. Konstitusiyanın dəyişməsinə qarşı olan hüquqşünas və QHT rəhbərlərinin sayı 106 nəfərdir. Onlar bütün beynəlxalq qurumlara və ölkə vətəndaşlarına, eyni zamanda, Ermənistan hakimiyyətinə müraciət edirlər ki, konstitusion pozuntunun qarşısı dərhal alınsın. Buna baxmayaraq, ikili standartlarla fəaliyyətə üstünlük verən Avropa qurumları məsələyə olduqca loyal yanaşırlar.

Ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir neçə müddətdir Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasında yaranan qarşıdurma artıq daha gərgin mərhələsini yaşamaqdadır: "Belə ki, uzunmüddətli mübarizədən sonra Ermənistan parlamentinin təcili iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin istefasına dair referendum keçiriləcəyi barədə qanun layihəsi təsdiq edilib.

Konstitusiya Məhkəməsinin yeni tərkibini müəyyən etmək üçün nəzərdə tutulan referendum barədə qanun layihəsinin lehinə 88 deputat, əleyhinə isə 15 deputat səs verib. "Çiçəklənən Ermənistan" fraksiyası səsvermədə iştirak etməyib. Yerli mediların yazdığına görə, referendum mart ayının sonu və ya aprelin əvvəlində keçirilə bilər. Böyük əksəriyyəti Baş nazir Nikol Paşinyanın Vətəndaş Sazişi Partiyasının üzvü olan "Mənim addımım" bloku 132 deputatdan ibarət parlamentdə 88, "Çiçəklənən Ermənistan" Partiyası 26, "İşıqlı Ermənistan" Partiyası 17 mandatla təmsil edilir.

Qeyd edək ki, Ermənistan Konstitusiyasına "Mənim addımım" fraksiyası tərəfindən hazırlanmış düzəlişlərə əsasən, Konstitusiya Məhkəməsi sədrinin və üzvlərinin səlahiyyətlərinə xitam verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər 9 hakimdən ikisinə - Vaqe Qriqoryanla Armen Dilanyana şamil edilmir. Digər 7 hakim və sədr Hrayr Tovmasyan isə yeni düzəlişlərin əsas hədəfidir.

Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı Tovmasyanın üçüncü prezident Serj Sarkisyanın tərəfdarı olduğunu və Konstitusiya mətninin onun maraqlarına uyğun dəyişdiyini iddia edib: **"Sarkisyanla Tovmasyan arasında belə bir razılaşma əldə olunub ki, məhkəmə sədri ona ölkəyə ömürlük rəhbərlik etməsinə şərait yaradan mətn hazırlamalı və həmin mətn 2035-ci ilədək onu qorumalıdır. Açıq-aşkar görünür ki, Paşinyan bu məsələdə siyasi rəqiblərini sıradan çıxarmağı hədəfləyir. Dərin təəssüflə qeyd etməliyəm ki, Avropa strukturları bu məsələyə sükutlu mövqe sergiləyir".**

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan turizmin inkişaf sürətinə görə dünyanın 20-ləri sırasına düşdü

**Hazırda bütün dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri sayılır. İstər ölkələrin tanıdılması, istərsə də gəlirlərinin artırılması üçün turizm sahəsinə diqqət ildən-ilə artır. Turizmin inkişafı istiqamətində son illər silsilə işlər görülməkdə davam edir.**

*"Əsas hədəf Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək..."*

**Elçin Rüstəmov:** *"Turizm sənayesinin inkişafı müsbət dinamika üzərində gedir"*




Elə bu səbəbdən də ölkəmizə gələn turistlərin sayı artır. İstirahət üçün ölkəmizi seçən turistlərin sayının artması beynəlxalq hesabatlarda da əks olunur.

BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) "Dünya Turizm Barometrinin" son hesabatına əsasən, Azərbaycan dünyada turizmi ən sürətlə inkişaf edən 20 ölkədən biri kimi qiymətləndirilib. Qeyd edək ki, hesabat ildə dörd dəfə nəşr olunur və turizm istiqamətləri üzrə ən son məlumatların təhlilini özündə cəmləşdirir.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov qeyd etdi ki, turizm qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələrdən biridir. Həmçinin, beynəlxalq metodologiyalara əsasən də ölkənin əlverişli coğrafi mövqeyindən istifadə edilməklə hava əlaqəsinin və əlçatanlığının artırılması, qədim tarixə, ənənəvi dəyərlərə, cəlbedici təbiətə malik olması ilə yerli dəyərlərin beynəlxalq aləmdə uğurla təbliği bu sahənin əsas potensial imkanlarından hesab olunur: "Turizm sektorunun inkişafının dəstəklənməsi nəticəsində mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2015-ci illə müqayisədə 2018-ci ildə 60 ədəd, müvafiq xidmətlərdən istifadə edən yerli və əcnəbi turistlərin sayı isə 991,330 min nəfər artıb. Turizm dövlət-özəl tərəfdaşlığı əsasında xarici investisiyaların əsas payı ilə ekoloji dayanıqlıq prinsipləri əsas götürülməklə kəndlərin və regionların inkişafına əsas təkanverici qüvvəsi olaraq Azərbaycanın beynəlxalq arenada qabaqcıl mövqe tutmasına şərait yaradır".

Həmsöhbətimiz onu da vurğuladı ki, turizm sənayesinin inkişafı müsbət dinamika üzərində gedir. Bu gün bölgələrin turizm siyasətinin formalaşdırılması, turizm potensialının araşdırılması üçün Destinasiya Menecmenti təşkilatları yaradılır. Destinasiya Menecmenti təşkilatları regionların turizm potensialını daha effektiv istifadə etmək, regional turizmin təbliğatını aparmaq, bununla da uzunmüddətli davamlı iqtisadi inkişafa nail olmaq məqsədilə yeni idarəetmə modeli olaraq fəaliyyət göstərir.

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycanın 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsi başlıca hədəflərdən biridir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir".

**Günel CƏLİLOVA**

# İqtisadiyyatımıza kredit qoyuluşlarında bank olmayan kredit təşkilatlarının rolu "ölü" vəziyyətdədir

**Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da kredit qoyuluşunda əsas yük bankların üzərinə düşür. 2019-cu ilin sonunda Azərbaycan iqtisadiyyatına kredit təşkilatlarının cəmi kredit qoyuluşları 15,3 milyard manat təşkil edib.**

*"Kredit ittifaqlarının maliyyə vəsaitlərinə çıxış imkanları artarsa..."*

**Əli Əlirzayev:** *"Kredit ittifaqlarının kredit qoyuluşunda rolu olduqca zəifdir"*




Məlumat üçün bildirək ki, bunun da 97,4 faizi, yəni 14,9 milyard manatı banklar tərəfindən verilib. Kreditlərin qalan hissəsi isə bank olmayan kredit təşkilatları tərəfindən ayrılıb. Bankların kredit qoyuluşu 16 faiz artdığı halda, qeyri-bank kredit təşkilatlarının kredit qoyuluşu cəmi 1,2% artıb.

Araşdırmalar zamanı məlum olub ki, bank olmayan kredit təşkilatlarının kredit qoyuluşunda rolu zəifdir. Ancaq nəzərə almaq lazımdır ki, əksər xarici ölkənin kredit bazarında banklar üstün mövqeyə sahib olsa da, qeyri-bankların kredit qoyuluşunda payı ölkəmizdə olduğu qədər az deyil.

Kredit qoyuluşunda bank olmayan kredit təşkilatlarının rolunun nə səbəbdən zəif olduğunu öyrənmək məqsədilə mütəxəssisə müraciət etdik.

İqtisadçı-ekspert Əli Əlirzayev qeyd etdi ki, Azərbaycanda 2000-ci ildə kredit ittifaqları haqqında qanun qəbul edilib. Qanuna əsasən, kredit ittifaqı mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və ya kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır. Burada qarşılıqlı kreditləşmə dedikdə kredit ittifaqında toplanan pul vəsaiti hesabına üzvlərin təsərrüfat və sosial ehtiyaclarının ödənilməsi üçün verilən qısa və uzunmüddətli kreditlər nəzərdə tutulur: "Kredit ittifaqları, sadəcə, öz üzvlərindən yox, həm də banklardan, beynəlxalq və xarici maliyyə-kredit qurumlarından kredit, qrant almaqla kredit verə bilər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, kredit ittifaqlarının kredit qoyuluşunda rolu olduqca zəifdir. Bunun da müəyyən səbəbləri var: "İlk olaraq bildirim ki, kredit ittifaqları, sadəcə, öz üzvlərindən yox, həm də banklardan, beynəlxalq və xarici maliyyə-kredit qurumlarından kredit, qrant almaqla kredit verir. Azərbaycanda kredit ittifaqlarının 98-99 faizini fermerlər, kənd sakinləri təşkil edir. Ölkəmizdə kredit ittifaqlarına üzv olanlar az olsa da, dünyanın qabaqcıl ölkələrində bu cür ittifaqlarda iştirakçılıq geniş yayılıb.

Son məlumatlara əsasən, dünya əhalisinin 15 faizindən çoxu, yəni təxminən 1 milyard nəfəri kredit ittifaqlarının üzvləridir. Dünya üzrə kredit ittifaqlarının ümumi aktivləri 20 trilyon dollar həcmində qiymətləndirilir. Azərbaycanda isə kredit ittifaqlarının portfeli cəmi bir neçə milyon manatdır və əhalinin yalnız 0,1-0,2 faizi ittifaqlara üzvdür".

Ekspert hesab edir ki, kredit ittifaqlarının maliyyə vəsaitlərinə çıxış imkanları artarsa, o zaman bu cür kredit təşkilatlarının da ümumi kreditləşmədə payı yüksək olar.

**Günel CƏLİLOVA**

# Məşhur "Xıdır Nəbi"nin tarixini bu qədər dəyişdirən kimlərdir...

**Azərbaycan xalqının üzü qədimlərdən bəri formalaşan, bir sıra bölgələrimizdə kütləvi şəkildə qeyd edilən mərasimlərindən biri Xıdır Nəbi mərasimidir. Xalqımızın düşüncəsində, mədəniyyətində, mərasimlər sistemində özünə ayrıca yer tutan Xıdır Nəbi (Xıdır İlyas, Xızır İlyas, Xıdır Əlləz - İ.S.) mərasimi qışın oğlan çağında, kiçik çillənin ilk ongünlüyündə (yəni fevralın ilk ongünlüyündə - fevralın 9-10-da) keçirilən bir mərasimdir.**

Təbii ki, bu mərasim müxtəlif dini və qeyri-dini inancların müşayiətilə Azərbaycan xalqının həyat tərzini özündə əks etdirir. Xıdır Nəbi mərasimi əsasən kütləvi olaraq Naxçıvanda, Cənubi Azərbaycanda, Qərbi Azərbaycanda, eləcə də Borçalı ellərində əziz bir bayram şöləni kimi qeyd edilir.

*Xıdır gəldi hayınan,*
*Bir balaca dayınan.*
*Dayça batdı palçığa,*
*Çıxartdıq hay-hayınan.*

Ellərimizdə dolaşan bu şərqini çoxlarımız eşitmişik və bu, Xıdır Nəbi mərasimində oxunardı.

Tarixən ənənəvi olaraq Xıdır Nəbi mərasimi kiçik çillənin ilk ongünlüyündə qeyd edilməsi diqqəti çəkir. Məsələ burasındadır ki, bir zamanlar bütün bölgələrdə eyni vaxtda qeyd edilən Xıdır Nəbi mərasiminin keçirilməsində ikitirəlik hökm sürür. Əvvəlki illərdən fərqli olaraq, indi hər bölgə öz istədiyi vaxt bu mərasimi qeyd edir. Məsələn, artıq Naxçıvanda Xıdır Nəbi bayram edilir, amma Borçalı və başqa bölgələrdə Xıdır Nəbi mərasiminin fevralın 13-15-də keçirilməsi nəzərdə tutulur. Yəni mərasimin kiçik çillənin ikinci ongünlüyündə qeyd edilməsi təəccüb doğurur. Əlbəttə, mərasimlərimizin keçirilməsinin bu şəkildə təhrif edilməsi yolverilməz və qəbuledilməzdir. Hər mərasimin, bayramın özünün ənənəvi keçirilmə tarixi mövcuddur və bəzilərinin bu tələbdən kənara çıxması müsbət hal deyil.

Etnoqraf Solmaz Məhərrəmova bizimlə söhbətində qeyd etdi ki, Xıdır Nəbi (Xıdır İlyas) xalq bayramı haqqında maraqlı araşdırmalar mövcuddur və bütün araşdırmalar bu mərasimin kiçik çillənin ilk ongünlüyündə keçirildiyini təlqin edir. S.Məhərrəmovanın qeyd etdiyinə görə, hər bir xalqın özünəməxsus bayramları var. "Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Araşdırmalar göstərir ki, bu gün xalqımızın məişətində mövcud olan bir sıra bayramların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan (Orucluq) bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, Xıdır İlyas (Xıdır Nəbi), Novruz kimi xalq bayramları da mövcuddur. Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə, deməl olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir. Xıdır İlyas adətən təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur, Xızır peyğəmbərlə eyniləşdirilir".

Qeyd edək ki, professor Pənah Xəlilovun yazdığına görə isə "folklorumuzda Xızır qədim xeyirxah-sehrli qüvvədir. Sonralar İslam dini əfsanəsinə qarışıb Xızır İlyas kimi məşhur olub. Xızır İlyas sehri (möcüzəsi) bir daha təsdiq edir ki, bu boy ən qədim dastanlardan su içir, tarixən İslamın yayıldığı dövrlərin əfsanələrinin təsirindən də kənar qalmır. Xıdır İlyas bayramının təsadüf etdiyi günlər haqqında tədqiqatçılar arasında müxtəlif fikirlər var. Onlardan bəziləri bu bayramın böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün davam etdiyini bildirirlər. Görkəmli folklorçu Əhliman Axundov isə həmin mərasimin kiçik çillənin onuncu günündə qeyd edildiyini göstərir".

Görkəmli folklorşünas-alim Bəhlul Abdullanın yazılarında isə qeyd edilir ki, kiçik çillənin Xıdır Nəbi adlanan birinci ongünlüyü fəslin ən sərt, çovğunlu, dondurucu çağı sayılır. "Xıdır Nəbinin şərəfinə icra olunan ayinlər Xıdırın yaşıllıq, su hamisi sayılan Xızırla əlaqəsini göstərir".

Professor Məhərrəm Qasımlı isə hesab edir ki, Xıdır Nəbi bayramı hər il qış yarı olanda böyük çillə ilə kiçk çillə arasında keçirilir.

Professor, Azərbaycanın Xalq yazıçısı mərhum Əzizə Cəfərzadə Xıdır İlyas mərasiminin kiçik çillənin qurtardığı son üç gündə - təxminən fevralın 25-28-i arasında keçirildiyini göstərib. Azərbaycanın görkəmli etnoqraflarından biri Ə.Ələkbərov da Xıdır Nəbi mərasiminin kiçik çillənin birinci ongünlüyündə qeyd edildiyini göstərib. Ə.Ələkbərovun fikrincə, bu bayrama hazırlıq işləri qadınlar tərəfindən aparıldığı üçün daha çox qadın bayramı hesab etmək olar.

Gördüyümüz kimi, alimlərin özləri arasında da Xıdır Nəbi mərasiminin keçirilmə tarixi ilə bağlı ziddiyyətlər var. Əslində, bu bayrama xalq arasındakı münasibət də elə bu amillərdən qaynaqlanır. Hər alim bu mərasimin keçirilmə tarixini bir cür izah etməyə çalışır.

Görək Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklorşünaslıq İnstitutunun mərasim folkloru şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ataş Əhmədli bu ziddiyyətə necə aydınlıq gətirir? Xıdır Nəbi mərasimi kiçik çillənin ilk ongünlüyündə, yoxsa ikinci ongünlüyündə qeyd edilməlidir?

**Ataş Əhmədli:** *"Xıdır Nəbi mərasiminin müxtəlif zamanlarda keçirilməsi vaxtilə bayram, mərasim mədəniyyətimizə qarşı ideoloji basqılarla da əlaqəlidir"*



*"Xıdır Nəbi təxminən bir həftə davam edən bayramdır"*

A.Əhmədli "Bakı-Xəbər"ə bildirdi ki, Xıdır Nəbi mərasimi kiçik çillənin birinci ongünlüyündən başlayaraq qeyd edilir. "Bu ərəfədə Xıdır Nəbi Naxçıvanda keçiriləcək. Xıdır Nəbi mərasiminin bölgələrdə fərqli günlərdə qeyd edilməsi heç bir problem yaratmır. Bu, mədəniyyətimizin çoxşaxəli, zəngin olması, bölgələrə görə dəyişməsi ilə bağlıdır. Xıdır Nəbi Novruza qədərki mərasimlərdəndir. Bu da Xızır peyğəmbərlə bağlı mərasimdir. Xızır insanları çilədən, zorluqdan, çətinlikdən xilas edib. Məsələn, Xıdır Əlləz (Xıdır Nəbi) bayramı Türkiyədə 6 mayda keçirilir. 6 may hara, fevral hara? Xıdır Nəbi mərasiminin müxtəlif zamanlarda keçirilməsi vaxtilə bayram, mərasim mədəniyyətimizə qarşı olan ideoloji basqılarla da əlaqəlidir. Görün bizim mərasim mədəniyyətimizə qarşı o qədər ideoloji basqılar edilib ki, Xıdır Nəbi mərasiminin keçirilmə vaxtına təsir edib və bu bayram Türkiyədə mayda qeyd edilir. Bu çox qəribə təsir göstərir. Kiçik çillə qış fəslinin ən amansız dövrüdür. Amma ərəb ədəbiyyatında Xızır yaşıllıq simoludur, mərasimin mahiyyətində bir bahar hərarəti, istilik, xilaskarlıq var. Yəni coğrafi bölgələrə, areallara görə onun bir obrazı var".

A.Əhmədli hesab edir ki, Sovet dövründə dini və milli dəyərlərimizi əks etdirən bayram və mərasimlərimizə qarşı qadağalar olub. O bildirdi ki, son dövrlər artıq bu dəyərlər İslam dini qanunlarına uyğunlaşdırılır. "Məsələn, Naxçıvanda əsasən Xıdır Nəbini cümə axşamı keçirirlər. Artıq Naxçıvanda qeyd edilməyə başlayıb və Xıdır Nəbi təxminən bir həftə davam edən bayramdır. İndi gəlib Xıdır Nəbinin kiçik çillənin ikinci ongünlüyünə düşməsi təqvimlə bağlıdır. Məsələn, Novruz bayramı bu il martın 20-nə düşür. Amma bəzən Novruz ayın 19-na, 21-nə də düşür. Bunlar hamısı şərti məsələlərdir. Xıdır Nəbinin də hansı günə düşməsi əsas deyil, əsas odur ki, kiçik çillənin ilk ongünlüyündən keçirilməyə başlayır və bir həftə davam edir. Bundan sonra isə boz ay gəlir. Fevralın 20-də kiçik çillə bitir, amma bu o demək deyil ki, Xıdır Nəbi bayramı ayın 20-nə qədər davam edir. Ayin 20-nə qədər kiçik çillənin dövrüdür" - deyə alim vurğuladı.

***İradə SARIYEVA***

№ 24 (4155) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Kosmosa ilk göndərilən canlılar...

**Məşhur inancın əksinə kosmosa göndərilən ilk canlı insan olmayıb. "Ted.az" bildirir ki, dünyada orbitə çıxarılan ilk canlı varlıq 1957-ci ildə "Layka" adlı 2 yaşlı it olub.**

"Layka" Sovet süni peyki "Sputnik 2" ilə kosmosa buraxılıb, lakin missiyanı diri olaraq başa çatdıra bilməyib və kosmik macəranın ilk qurbanı olub. Kosmik səyahətdən diri gələn ilk heyvanlar 1960-cı ildə "Sputnik 5" ilə kosmosa göndərilən Belka və Strelka olub. Kosmosun ilk qonaqları arasında şimpanze də olub. Amerikanın ilk "astro-şimpanze"si "Ham" banan mükafatı üçün Merkuriyə göndərilib. 16 dəqiqə 39 saniyə kosmosda qalan "Ham" sağ şəkildə geri qayıdıb. İlk fransız kosmonavt "Veronique" raketində kosmosa göndərilən "Hektor" adlı siçan olub. "Hektor" miniatür kosmonavt geyimində 1961-ci ildə kosmosa göndərilib. 1963-cü ildə "Veronquie" raketində kosmosa göndərilən heyvan kosmonavtlardan biri də "Feliks" adlı pişik olacaqdı. Lakin "Feliks" qaçdığına görə onun vəzifəsini "Felicette" adlı pişik "öhdəsinə götürüb". Pişiyin beyninə yerləşdirilən elektrodlar sinir impulslarını qeyd edirdi. "Felicette" sağ şəkildə dünyaya qayıdıb. 1968-ci ildə Sovet layihəsinin bir hissəsi olaraq, tısbağalar Ayın ətrafında fırlanıb, canlı şəkildə dünyaya qayıdıblar. 1975-76-cı ildə Soyuz layihəsinə əsasən kosmosa göndərilən başqa tısbağalar da olub. Həmin tısbağalar kosmosda ən çox qalan heyvanlar olublar. 1973-cü ildə "Arabella" və "Anita" adlı iki hörümçək orta məktəb şagirdinin tövsiyəsi ilə bir neçə ay "Skylab 3-də" qalıb. Onlar ilk hörümçək torunu orbitdə toxumaqla tarixə düşüblər. Kosmos qonaqları arasında meduza da olub. Meduza 1991-ci ildə Kolumbiya kosmik gəmisi ilə kosmosa göndərilib. Böyümə sürətini sınamaq üçün kosmosa göndərilən meduza, Yerə qayıdarkən tarazlıq itkisi yaşayıb.

## Yaponiyada "superşəhər" tikiləcək

**Yaponiya Nazirlər Kabineti "superşəhər"in yaradılması haqqında qanun layihəsini təsdiqləyib. Bu barədə yerli "NHK" teleradio şirkətinin məlumatında deyilir.**



"İctnews.az" bildirir ki, plana görə, "superşəhər"də ən son şəhər texnologiyalarının sınaqlarının keçirilməsi nəzərdə tutulur. Məsələn, məhsullar pilotsuz uçan aparatlar vasitəsi ilə çatdırılacaq, küçələrdə avtomatik idarəetmə sistemli avtomobillər hərəkət edəcək, bütün ödənişlər isə nağdsız aparılacaq. "Superşəhər"in yaradılması süni intellekt texnologiyalarının geniş istifadəsinə gətirib çıxaracaq dördüncü sənaye inqilabının üçün əsas rol oynayacaq.



## Yuxu zamanı beynimiz onurğa mayesi ilə yuyulur

**İnsan yuxuda olarkən onun beyninə onurğa beyin kanalından maye axır və bu maye beyin üçün zərərli olan toksiki qalıqları toxumalardan yuyur. "Medicina.az" bildirir ki, Boston Universitetinin alimləri 13 könüllü üzərində müşahidə aparıblar.**

Onlar yuxuya getdikdən sonra MRT vasitəsilə beynin aktivliyi izlənilib. Bu zaman alimlər onurğa beyin mayesinin hərəkətini də görüblər. Məlum olub ki, delta dalğalar yarandığı an beynin toxumaları pulsasiya edici dalğalarla onurğa beyin mayesi tərəfindən sanki yuyulur. Dərin yuxu fazasında beyin neyronlarına aktiv qan, oksigen lazım olmur və beyində qan dövranı azalır. Bu zaman toxumalarda təzyiq düşür və onurğa beyin mayesi rahat şəkildə beyin toxumalarına doğru axın edir. Onun dalğaları hər 20 saniyədən bir beyni yuyur. Onurğa beyin mayesi axını, qan dövranı və beyin dalğaları ayrı-ayrılıqda yox, birlikdə bir prosesdə iştirak edir və beynə zərərlik artıq məhsulları, toksinləri çıxarır. Həqiqətən də Alsgeymer xəstəliyi olanlarda yuxu zamanı onurğa beyin mayesinin pulsasiyası çox zəif olur. Ona görə bu şəxslərdə toksinlərin toplaşması sürətlənir və demensiya inkişaf edir. Ona görə, gənc və orta yaşlarda 7-8 saatlıq yuxu rejiminə əməl etmək vacibdir.

### Elan

Şəki şəhər sakini Hacıyeva Səmayə Mustafa qızının adına verilmiş 941/ 2411 saylı ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Bolludərə kənd sakini Süleymanov Silon Süleyman oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0002 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Çətin və mürəkkəb gündür. Problemlərin öhdəsindən asanlıqla gələ bilərsiniz. İşləriniz hər hansı biri məcrasından çıxarsa, təşvişə qapılmayın, ruhdan düşməyin. Çevik və qıvraq olun, ətrafınızdakı insanları heyrətləndirin.

**Buğa** - Mühüm danışıqlar üçün münasib gündür. Maraqlarınızı asanlıqla müdafiə edirsiniz, sizə kimsə mane ola bilmir. Yaxın ətrafınızdakı insanların fikirlərini qulaqardına vurmayın. Ağıllı məsləhətlərə qulaq asın.

**Əkizlər** - Çətin gün olsa da, ruhdan düşməyin, bədbinliyə qapılmayın. Fəal olun, məqsədə doğru qətiyyətlə irəliləyin. Nigaranlıq yarada biləcək məlumat və ya informasiyanın alınması istisna deyil.

**Xərçəng** - Pərişanlıq və ciddi uğursuzluqla qarşılaşmamaq üçün maksimum dərəcədə diqqətli olun. Problemlərin səbəblərini müəyyənləşdirin, onları aradan qaldırmağa səy göstərin. Maliyyə itkiləri, uğursuz anlaşmalar istisna deyil.

**Şir** - Gəlir, qiymətli hədiyyə istisna deyil. Alış-veriş üçün əlverişli gündür. Sizin üçün önəmli insanlarla axşam saatlarında görüş ola bilər. Yaxşı görünməyə çalışın.

**Qız** - Maliyyə çətinlikləri ola bilər. Borc pul vermək olmaz, çünki bu pulları sonra sizə qaytarmayacaqlar. Sizdən çox yaşlı insanla hansısa iş barədə danışmayın. Axşam saatları travma risklidir.

**Tərəzi** - Maliyyə çətinlikləri, itkilər istisna deyil. Yaxınlarınız sizi dəstəkləməyə çalışır, yaxşı məsləhətlər verirlər. Yalnız öz fikirlərinizi həqiqət saymayın. Sükan arxasında həddən ziyadə diqqətli olun.

**Əqrəb** - Gün ərzində yaranacaq problemlərin öhdəsindən sürətlə gələ bilməyəcəksiniz. Çətin situasiyaya düşmüş insanlara yardım etməyi unutmayın. İşgüzar danışıqlar aparmaq, gələcəklə bağlı planları müzakirə etmək üçün əlverişli gündür.

**Oxatan** - Qəfil sürpriz, gözlənilməz hədiyyə, xoş təsadüf ola bilər. Gerçəkdən də, mühüm işdə irəliləyişə və uğura nail olmaq üçün çox çalışmalısınız. İşdən qorxmasanız, fəal olsanız, gün məhsuldar keçəcək.

**Oğlaq** - O qədər də uğurlu olmayan gündür. Hadisələr planlaşdırdığınız kimi inkişaf etmir. Əsəbi, sinirli olmayın. Ətrafınızdakı insanlara qarşı izafi tələblərlə çıxış etməyin. Onları sərt tənqidlərə məruz qoymayın.

**Dolça** - Yeni işlərə həvəslə başlaya bilərsiniz. Əvvəl başladığınız işləri isə səbrlə çalışaraq tamamlayın. İşdə həmkarlar, müttəfiqlər və həmfikirlərlə ixtilaflar yarana bilər. Mübahisə və boş söhbətlərə sərf etdiyiniz zamandan faydalı işlər üçün yararlanmaq olar.

**Balıqlar** - Uğurlu, düşərli gündür. Əvvəlcədən hazırladığınız planları reallaşdırmaq üçün əlverişli zamandır. Əslində, improvizasiyalar da pis olmayacaq. Hansı istiqamətə getməyin gərəkliliyi barədə intuisiyanız sizə məlumat verəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Məşhur yazıçıya aid əşyalar tapılıb



**İngilis ədəbiyyatının məşhur nümayəndəsi Çarlz Dikkensə aid olan itirilmiş portret, "Devid Kopperfild" əsərinin əl ilə yazılmış nüsxəsi və 25 məktub tapılıb.**

"AZƏRTAC" bildirir ki, itirilmiş portret, əlyazma və 25 nəşr olunmamış məktub xüsusi kolleksiyaçıdan 1,8 milyon funt-sterlinqə satın alınıb. Tapılan məktublar yazıçının "Milad nəğməsi" əsəri də daxil olmaqla digər romanlarının üzərində işləyən zamankı düşüncələrini əhatə edir. Əşyalar il ərzində Çarlz Dikkens Muzeyində sərgilənəcəkdir. Muzeyin direktoru Dikkensin ölümündən 150 il sonra incəsənət ocağına belə zəngin və vacib bir kolleksiyanın gəlməsinin çox xoş olduğunu deyib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.